UNDP

TOPCHUBASHOV center

BAKI 2023

# Azərbaycanda müharibə sonrakı Gənclər, Sülh və Təhlükəsizlik gündəliyi: çağırışlar və imkanlar



Bu hesabat Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) maliyyə dəstəyilə hazırlanıb. Hesabatın məzmunu yalnız müəlliflərin məsuliyyətidir və heç bir halda BMTİP-in mövqeyini əks etdimək üçün əsas göstərilə bilməz.

## GİRİŞ

Münaqişələrin qarşısının alınması və həlli, davamlı sülhün qurulması ilə bağlı gənclərin fikirlərinin mənimsənilməsi son illərdə bir çox ölkələr tərəfindən qəbul edilmiş dünya təcrübəsidir. Bu mənada Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasınız Gənclər, Sülh və Təhlükəsizlik (GST) üzrə 2250 saylı qətnaməsi gənclərin sülh və təhlükəsizliyin qorunub saxlanması və təşviqi səylərində müsbət töhfəsini tanıyan ilk beynəlxalq siyasət sənədidir. Bu qətnamə gəncləri də əhatə edən sülh təşəbbüsləri üçün zəmin yaratmaqla öz beş sütunu daxilində fundamental yanaşmalar təklif edir: iştirakçılıq, müdafiə, qarşısını alma, tərəfdaşlıq, ayrılma və reinteqrasiya. GST gündəliyi gənclərin sülhün və münaqişələrin həllinin təmin olunması və saxlanılmasında mənalı və bərabər iştirakını təmin etdiyi kimi, gündəliyin yol xəritəsinin hazırlanmasında BMT-nin Təhlükəsizlik Şurasının (BMTTŞ) 2018 və 2020-ci illərdə qəbul etdiyi 2419 və 2535 nömrəli qətnamələr mühüm rolu oynayır.

Hər üç qətnamə sülh quruculuğu və münaqişədən sonrakı fəaliyyətlərin bütün mərhələlərində gənclərin iştirakını təşviq etsə də, 2250 nömrəli qətnamə gənclər, sülh və təhlükəsizlik gündəliyini bütünlükdə özündə əks etdirən ilk sənəddir. Qətnamə gənclər və maraqlı tərəflərin iştirakı ilə münaqişədən təsirlənən fərqli regionlardan olan gənclərin ehtiyaclarını nəzərə almaqla hazırlanıb və qlobal ictimaiyyətə ünvanlanıb. Bununla belə, daha detallı strukturun müəyyən edilməsi üçün sənədin konseptuallaşdırılmasına və lokallaşdırılmasına ehtiyac yaranır. 2250 nömrəli qətnamənin 5 pilləsi müxtəlif ölkələrdə fərqli səviyyələrdə təmsil olunduğundan, BMT-yə üzv ölkələr milli fəaliyyət planı və tematik gündəliklər hazırlamaq üçün fəaliyyətə keçib. Azərbaycan nümunəsində gənclər, sülh və təhlükəsizlik gündəliyinin mümkün ümummilli səviyyədə icrası yerli kontekstin gənclərin gözündən başa düşülməsini və fəaliyyətə cəlb olunacaq müvafiq insitutların müəyyənləşdirilməsini özündə ehtiva edir.

Bu hesabat bu ehtiyacdan qaynaqlanır və Azərbaycanda GST ilə əlaqəli mövzulara ünvanlanmaq üçün tərtib olunub. Hesabatda ölkə səviyyəsində kontekst təhlil edilir, eyni zamanda gənclərin qərarqəbuletmə və sülh təcrübələrində iştirakı necə qəbul etmələri, onların münaqişə və zorakılıqdan necə təsirləndikləri, bunun münaqişənin qarşısının alınmasına necə töhfə verməsi, gənclər tərəfindən idarə olunan təşəbbüs qrupları və dövlət qurumları, eləcə də yerli təşkilatlar arasındakı əməkdaşlıq səviyyəsi haqqında gənclər və gender aspektləri nəzərə alınmaqla həssas yanaşma təqdim olunur. Əlavə olaraq, ümumi yanaşmanın, məqsədlərin və prinsiplərin əks olunduğu tədqiqat boyu normativ və siyasət çərçivələri diqqətlə nəzərdən keçirilib. Siyasət çərçivələri milli və submilli proqramların icrası zamanı xüsusilə də müvafiq maraqlı tərəflərin qərarqəbuletmə prosesinə cəlb edilməsi üçün vacibdir. Azərbaycanda normativ və siyasət çərçivələrini formalaşdıran tendensiyaları əks etdirmək üçün gənclərin perspektivləri ilə yanaşı, qərarqəbuledici şəxslərin və siyasətçilərin təklifləri və ideyaları da nəzərə alınıb. Əlavə olaraq, bu hesabat GST gündəliyinin məqsədlərinin uyğunluğunu onları Azərbaycanda daxili və xarici səviyyələrdə müxtəlif siyasət sahələrinə inteqrasiya etməklə təhlil edib. Hesabatın hazırlanması zamanı GST gündəliyinin mövcud siyasət sahələrinə inteqrasiyası ilə yanaşı, müvafiq yol xəritələrinin hazırlanması üçün gələcək perspektivlər və strategiyalar yaxından tədqiq edilib.

Bu tədqiqat fərdi müsahibələr, fokus qrupları və dəyirmi masa müzakirələri metodlarından əldə edilən və keyfiyyətə əsaslanan datanı özündə cəmləşdirir. İlkin mərhələdə vətəndaş cəmiyyəti nümayəndələri, hökumət təmsilçiləri, siyasi ekspertlər, məcburi köçkünlər və beynəlxalq təşkilatların nümayəndələri ilə fərdi müsahibələr aparılmışdır. İkinci mərhələ gənc fəal qruplarla fokus qrup müzakirələrini əhatə edir. Üçüncü mərhələ müvafiq hökumət və qeyri-hökumət institutlarının nümayəndələri ilə dəyirmi masa müzakirələrinə həsr olunub. Data toplanması prosesinin hər üç mərhələsi boyunca respondentlər məqsədyönlü seçmə üsulu ilə müəyyən edilib. Digər tərəfdən, statistik datalar dövlət və

beynəlxalq təşkilatların rəsmi sənədləri əsas olmaqla ikinci dərəcəli mənbələrdən istifadə edilməklə tərtib olunmuşdur.

Bu hesabatın birinci hissəsi onilliklər ərzində dövlət siyasətinin təkamül mərhələlərini etməklə yanaşı, milli gənclər siyasətinin və Azərbaycanda müxtəlif səviyyələrdə gənclərin təmsil olunmasının ətraflı çərçivəsini özündə ehtiva edir. İkinci hissədə gənclərin münaqişə transformasiyası və sülhquruculuğu cəhdlərində iştirakına mane olan əsas amillər araşdırılmış və gənclərin üzləşdikləri problemlər əks olunmuşdur. Hesabatın üçüncü hissəsi GST gündəliyinin milli səviyyədə gücləndirilməsi üçün mümkün yolları vurğulayır. Son bölmə araşdırmanın nəticələrini ümumiləşdirməklə hökumət institutları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətləri üçün təklifləri özündə cəmləşdirir.

## YERLİ KONTEKST: AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ VƏ TƏMSİLÇİLİK

Mövcud olan son məlumatlara görə, Azərbaycan əhalisinin təxminən 30%-i 15-29 yaş aralığındadır. Bu da ölkənin demoqrafik mənzərəsində gənclərin kifayət qədər əhəmiyətli qrup olduğunu göstərir. Bu əhəmiyyətli qrup nəinki Azərbaycanın sosial mənzərəsinə canlılıq və dinamizm gətirir, həm də ölkənin müxtəlif sahələrində gələcəyi formalaşdırmaq üçün böyük potensiala malikdir. Azərbaycanlı gənclərin böyük hissəsi təhsil, texnologiya, sahibkarlıq, incəsənət və mədəniyyət kimi sektorlar üzrə innovasiya, yaradıcılıq və tərəqqi üçün münbit zəmin yaradırlar.

Gənclərin bu potensialından istifadənin vacibliyini dərk edən Azərbaycan hökuməti müstəqillik əldə etdikdən sonra hərtərəfli və çoxşaxəli gənclər siyasətinin aparılması üçün səylər göstərmişdir. Gənclər və İdman Nazirliyinə o vaxtdan bəri bir neçə dəfə rebrendinq edilmiş və yenidən strukturlaşdırılmış və 1994-cü ildə gənclər siyasətinin formalaşdırılması və həyata keçirilməsinə cavabdeh olan əsas idarəetmə orqanı kimi meydana çıxmışdır. Nazirlikdən başqa, digər əsas instutlar, məsələn Prezident Administrasiyası daxilində, hökumətin ən

yüksək səviyyəsində rəhbərlik və koordinasiyanın təmin edilməsində mühüm rol oynayan Gənclər Siyasəti Departamenti və İdman İşləri İdman Məsələləri və müvafiq qanunvericiliyin hazırlanmasında mühüm vəzifələr daşıyan və bu sahədə mühüm rol oynayan Milli Məclisin Gənclər və İdman Komitəsi Azərbaycanda gənclər siyasəti mənzərəsinin formalaşdırılmasına töhfə verir.




***Şəkil 1. Azərbaycanda gənclər siyasətinin təkamülü***

Azərbaycanda gənclər siyasəti üç mərhələdən keçib (Şəkil 1.). 1990-cı illərdə başlayan ilkin mərhələ milli gənclər siyasətinin sütunlarının formalaşması ilə əlamətdar oldu: müharibədən sonrakı ağır siyasi və iqtisadi çətinliklərə baxmayaraq, hökumət gənclərlə bağlı məsələləri həll etdi və müvafiq strukturların və strategiyaların yaradılması istiqamətində mühüm addımlar atdı. Milli gənclər siyasətinin institusionallaşdırılması Ümumrespublika Gənclər Forumunun ənənəsi ilə davam etdi: o vaxtkı Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin İlk Forumu keçirildi. Bu tarix hazırda Gənclər Günü kimi qeyd olunur. 1999-cu ildə Bakıda təşkil olunmuş Gənclərin 2-ci Forumunda Prezident Heydər Əliyev özü də iştirak edib. 1995-ci ildə ilkin olaraq ölkə daxilində

fəaliyyət göstərən məhdud sayda gənclər təşkilatlarını birləşdirən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) yaradıldı. Zaman keçdikcə NAYORA əhəmiyyətli dərəcədə inkişaf etdi və Azərbaycanın gənclər siyasəti landşaftında əhəmiyyətini daha da möhkəmləndirərək Cənubi Qafqaz regionunda ən böyük gənclər təşkilatlarından birinə çevrildi.

2000-ci illərdə baş verən ikinci mərhələ Azərbaycanda neft və qaz satışından əldə edilən gəlirlərin tədricən sabitləşməsi və artımı dövrü oldu. Bu yeni əldə edilmiş sabitlik və maliyyə rifahı ölkədə gənclər siyasətinin daha çox institusionallaşmasına və mərkəzləşməsinə kömək etdi. Bunun nəticəsi olaraq Azərbaycanda gənclər təşkilatlarının sayı nəzərəçarpacaq dərəcədə artmış, dövlət səviyyəsində həyata keçirilən gənclər proqramları dinamik şəkildə coxalmağa doğru getmişdir. Məhz bu dövrdə Azərbaycanın gənc əhalisi beynəlxalq gənclər və tələbə proqramlarının geniş spektri ilə getdikcə daha çox tanış olduqca və bu proqramlarda fəal iştirak etdikcə kütləvi şəkildə "dünyanı kəşf etməyə" başladılar: xüsusilə, AYAFE, AIESEC və Erasmus+ kimi proqramlar Azərbaycan gənclərinə qlobal miqyasda iştirakı üçün çoxsaylı imkanlar yaratdı.

2010-cu illərdən başlayan dövr dövlətin gənclərlə bağlı işlərdə daha böyük rol oynadığını və yüksək mərkəzləşdirilmiş gənclər sektorunun formalaşmasını göstərir. Neft və qaz satışından əldə edilən əhəmiyyətli gəlirlər Azərbaycan hökumətini dövlət mərkəzli gənclər siyasəti çərçivəsində müxtəlif alətlər və təşəbbüsləri həyata keçirmək üçün resurslarla təmin edib. Bu yerli gənclər təşkilatlarının davamlılığını təmin etmək üçün müxtəlif qurumlar, o cümlədən Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu (2011-ci ildə yaradılmış), QHT-lərə Dövlət Dəstəyi Agentliyi (2007-ci ildə yaradılmış) tərəfindən yerli gənclər təşkilatlarına fəal maliyyə dəstəyi verilmişdir. Qeyd edək ki, Gənclər Fondu yerli gənclər təşkilatlarına və onların təşəbbüslərinə dəstək olub. Layihələrin icrası məqsədi ilə dövlət büdcəsindən 20 milyon manatdan çox vəsait ayrılan Gənclər Fondu 2011-ci ildən  fəaliyyətə başlayandan indiyədək 3000-dən çox layihəni maliyyələşdirib.

Dövlətin bu sektora sponsorluğunun bariz nümunəsi dövlət tərəfindən maliyyələşdirilən və 2007-ci ildə başlanmış Azərbaycan gənclərinin xaricdə təhsili üzrə proqramdır. Səkkiz ili əhatə edən və 2015-ci ilə qədər davam edən bu proqramın məqsədi Azərbaycan gənclərinin xaricdə təhsili üçün, Amerika Birləşmiş Ştatları və Avropa ölkələrinə əsas diqqət yetirməklə, dünyanın hər yerində nüfuzlu təhsil müəssisələrində ali təhsil almaq imkanları yaratmaqdır. Xaricdə Təhsil Proqramı həyata keçirildiyi müddətdə 3300-dən çox azərbaycanlı tələbənin dünya miqyasında nüfuzlu təhsil müəssisələrində təhsil almasına şərait yaradılmışdır . Ölkənin neft-qaz gəlirləri üçün yaradılan Dövlət Neft Fondu bu proqramı 200 milyon ABŞ dollarından artıq büdcə ilə maliyyələşdirib. Təşəbbüs iki yeni proqram şəklində canlandırılıb: "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Milli Proqram" (2018-ci ildə qəbul edilib) və 2022-2026-cı illər üçün, gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları üçün Milli Proqram (hər ikisi eyni Neft Fondu tərəfindən maliyyələşdirilir). Sonuncu, 2000-ə qədər Azərbaycan vətəndaşının xaricdə bakalavr və magistratura səviyyələrində təhsil almasına dəstək verilməsini nəzərdə tutur.

Bundan başqa, Azərbaycanın neft nəhəngi SOCAR xaricdə təhsil almaq və qayıtdıqdan sonra həmin şirkətdə işlə təmin edilmək istəyən yerli tələbələr üçün ayrıca təqaüd təsis edib.

Azərbaycanın dövlət mərkəzli gənclər siyasətinin digər əsas istiqaməti də son illərdə trendə çevrilmiş və minlərlə gənci cəlb edən könüllülük proqramlarıdır. Birinci mərhələdə könüllülük fəaliyyətləri daha çox beynəlxalq təşkilatlar tərəfindən dəstəklənsə də, üçüncü mərhələdə dövlət bu sahədə mərkəzi rolu öz üzərinə götürür. 2009-cu ildə Milli Məclis tərəfindən "Könüllülük haqqında" Qanunun qəbul edilməsi ölkədə könüllülük fəaliyyətinin hüquqi bazasının yaradılmasında mühüm addım oldu. Qanunun qüvvəyə minməsindən sonra 2013-cü ildən könüllülük proqramları ASAN Xidmətə inteqrasiya olunub. Dövlət xidmətlərinə səmərəli və vətəndaş mərkəzli yanaşması ilə tanınan ASAN Xidmət könüllü təşəbbüslərin təşkili və əlaqələndirilməsi üçün əsas platformaya çevrildi.

Bu inteqrasiya dövlət mərkəzli gənclər siyasəti çərçivəsində könüllülərin daha sistemli və strukturlaşdırılmış cəlb edilməsini təmin edərək prosesləri asanlaşdırdı.

2008-ci ildən Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq mədəni və idman tədbirlərinin sayının artması könüllülüyün təşviqində mühüm rol oynayıb. Qeyd edək ki, 2012-ci ildə Avroviziya Mahnı Müsabiqəsi və 2015-ci ildə Bakıda keçirilən Birinci Avropa Oyunları kimi görkəmli tədbirlər zamanı könüllülərin fəal şəkildə cəlb edilməsinə xüsusi diqqət yetirildi. Sonrakı illərdə könüllülüyün əhəmiyyəti artmağa davam etdi. 2016-cı ildən bəri minlərlə könüllü hər il keçirilən Formula 1 yarışlarında, 2017-ci ildə Bakı İslam Həmrəyliyi Oyunlarında və Azərbaycanın ev sahibliyi etdiyi çoxsaylı digər idman yarışlarında fəal iştirak ediblər. 2020-ci ilin Azərbaycanda Könüllülər İli elan edilməsi dövlətin könüllülük fəaliyyətini dəstəkləməsinin mühüm sübutu oldu. Bu gün könüllülük, Azərbaycanın dövlət və ictimai qurumlarının mədəniyyətinə dərindən kök salıb. Əksər dövlət təşkilatları, eləcə də ictimai qurumlar öz könüllülük proqramlarının əsasını qoyaraq gənclərə sosial təşəbbüslərdə iştirak etmək üçün müəyyən imkanlar yaradıblar.

Bu mərhələdə dövlət təşəbbüsləri yerli səviyyədən kənara çıxmış və beynəlxalq arenada tanınmağa başlamışdır. Azərbaycan xüsusilə Ermənistanla münaqişə fonunda özünü fəal şəkildə təmsil etməyə və maraqları barədə məlumatlılığı artırmağa çalışıb. Azərbaycanın təşəbbüskar yanaşmasının bariz nümunələrindən biri BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (ICYF) yaradılmasıdır. Daha sonra ICYF "Xocalıya Ədalət" Beynəlxalq Kampaniyasının təbliğində mühüm rol oynadı. Bu kampaniya Ermənistan və Azərbaycan arasında münaqişə zamanı baş vermiş bəşəriyyətə qarşı ən böyük cinayət olan Xocalı qətliamı ilə bağlı məlumatlılığı artırmaq və ədaləti axtarmaq məqsədi daşıyıb.

Bununla belə, Azərbaycanda dövlət mərkəzli gənclər siyasəti 2015-ci ildə neft gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasından sonra çətinliklərlə üzləşdi. Bu azalma gənclər layihələri üçün büdcələrin ayrılmasına nəzərəçarpacaq təsir göstərdi və daha çox maliyyə vəsaiti ayrılan təşəbbüslərin sayının əhəmiyyətli

dərəcədə azalmasına səbəb oldu. Əhəmiyyətli dəyişikliklərə məruz qalan xüsusi sahələrdən biri xaricdə təhsillə bağlı yuxarıda qeyd olunan proqramdır. Neft gəlirlərinin azalması fonunda, bu proqram əhəmiyyətli maliyyə məhdudiyyətləri ilə üzləşdi və yenidən strukturlaşdırılmalı oldu. Dörd il sonra yenilənmiş proqram sələfi ilə müqayisədə daha məhdud formada buraxıldı. Dəyişən maliyyə mənzərəsinə cavab olaraq, dövlət mövcud resurslarla mənalı təsirə malik məqsədyönlü və strateji proqramlara diqqət yetirməklə gənclər sektoruna investisiyalarını optimallaşdırmağa çalışdı. Bu yanaşma prioritetlərin diqqətlə yenidən qiymətləndirilməsini və maksimum dəyər və uzunmüddətli fayda təmin edə biləcək təşəbbüslərə doğru keçidi tələb edirdi. Bəzi təşəbbüslərin miqyası təsirlənsə də, dövlət milli gənclər sektorunda dominant rolunu saxlamaq üçün maliyyə resursları ayırmaqda qərarlı idi. Bu uyğunlaşma və davamlılıq hökumətin iqtisadi çətinliklərə baxmayaraq gənclərə yönəlmiş səylərini davam etdirmək istəyini nümayiş etdirdi. Məhz 2015-ci ildə Hökumət 2025-ci ilədək görüləcək tədbirlər üçün qanunvericilik bazasını müəyyən edəcək Azərbaycan Gənclərinin İnkişaf Strategiyasını qəbul etdi. İki il sonra Azərbaycan Prezidenti “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Milli Proqramını imzaladı.

Bundan başqa, son illər Azərbaycanın gənclər siyasətində gələcəyə yönümlü gənc texnokratların yetişdirilməsinə dövlət büdcəsindən daha çox vəsaitin yönəldilməsi diqqətəlayiqdir. Bu öhdəliyi vurğulayan təşəbbüslərdən biri 2019-cu ildə Yüksəliş müsabiqəsinin yaradılmasıdır. Bu müsabiqə dövlət idarəçiliyində diqqətəlayiq potensial nümayiş etdirən müstəsna gəncləri müəyyən etmək və tanımaq üçün platforma rolunu oynayır. Müsabiqə hərtərəfli testlər və müsahibələrdən ibarət ciddi seçim prosesi vasitəsilə gənclər arasında ən perspektivli istedadları üzə çıxarmaq məqsədi daşıyır. Yüksəliş müsabiqəsində üstün qabiliyyət nümayiş etdirən iştirakçılar şəxsi inkişaflarını dəstəkləmək üçün maddi mükafatlarla təltif edilməklə yanaşı, yüksək səviyyəli dövlət məmurları tərəfindən təqdim olunan mentorluq imkanlarından da yararlanırlar.

Ümumiyyətlə, son üç onillikdə Azərbaycanda aparılan gənclər siyasətini təhlil etdikdə nəzərəçarpacaq transformasiya özünü büruzə verir. Əvvəlcə gənclər

sektoru daha qeyri-mərkəzləşdirilmiş və rəqabətli mənzərə ilə səciyyələnirdi, lakin zaman keçdikcə o, dövlətin himayəsi altında yüksək mərkəzləşmiş sahəyə çevrildi. Bu dəyişikliyin beynəlxalq aktorların gənclər sektoruna cəlb olunmasına böyük təsirləri oldu və bir çox beynəlxalq təcrübələrin yerli alternativlərinin yaradılmasına səbəb oldu.

Hökumət kənar təşkilatlardan və təşəbbüslərdən asılılığı azaltmaq məqsədi ilə daha mərkəzə əsaslanan çərçivə yaratmaq üçün öz inzibati resurslarından istifadə etmişdir. Bu strateji dəyişiklik bir çox yerli proqram və təşəbbüslərin inkişafı ilə nəticələndi. Beynəlxalq təcrübəyə yerli alternativlərin yaradılması Azərbaycana öz gənclər sektoruna daha çox nəzarət etməyə imkan versə də, bunun gözlənilməz nəticələri də oldu. Əhəmiyyətli təsirlərdən biri gənclər sektorunda beynəlxalq əməkdaşlığa potensial gərginlik olmuşdur. Yerli təşəbbüslərə üstünlük verməklə Azərbaycan beynəlxalq tərəfdaşlıqlar vasitəsilə təklif olunan əməkdaşlıq, bilik mübadiləsi və bacarıqların inkişafı üçün dəyərli imkanları əldən vermiş ola bilər. Məsələn, qonşu ölkə ilə uzun sürən münaqişədən əziyyət çəkməsinə baxmayaraq, Azərbaycan gənclərinin strategiyasında - ən sonuncusu 2015-2025-ci illər strategiyasında gənclərin münaqişələrin transformasiyası, sülh və təhlükəsizlik işlərində rolu ilə bağlı bir bənd yoxdur. 2017-2021-ci illər üçün “Gənclər Proqramı”nda milli-dini tolerantlığın, sülhsevərliyin və humanizmin təbliği (Gənclər və İdman Nazirliyinə, Təhsil və Elm Nazirliyinə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, Dövlət Təhlükəsizliyi Xidmətinə həvalə olunur) nəzərdə tutulduğu halda, 2020-ci il öncəsi sənəd kimi gənclər arasında vətənpərvərlik hissinin artırılmasına (daha) güclü diqqət yetirilir. Gənclər sektorunda təcrid olunmuş beynəlxalq mövcudluq və beynəlxalq təşkilatlar və proqramlarla məhdud əlaqə ölkənin gənclər sektorunun hərtərəfli inkişafı üçün mühüm əhəmiyyət kəsb edən ən son qlobal tendensiyalara, innovativ təcrübələrə və müxtəlif perspektivlərə çıxışına mane ola bilər.

## GƏNCLƏRIN SÜLH VƏ TƏHLÜKƏSİZLİK TƏŞƏBBÜSLƏRİNDƏ İŞTİRAKI: MÖVCUD MƏNZƏRƏ VƏ ÇAĞIRIŞLAR

Qonşu Ermənistanla uzun sürən münaqişə gənclərin sülh quruculuğu və münaqişənin transformasiyasında iştirakını, eləcə də gənclərin Azərbaycanda sülh və təhlükəsizliklə bağlı gözləntilərinin nəzərə alınmasını zəruri edib. Dünyanın bir çox yerlərində olduğu kimi, gənclərin siyasi qərarların qəbulu proseslərində, xüsusilə sülh və təhlükəsizlik kimi həssas məsələlərdə məhdud və ya ümumiyyətlə mövcud olmayan iştirakı sadəcə Azərbaycana xas olmayan struktural problemlərdən qaynaqlanır. Bundan əlavə, münaqişənin transformasiyası təşəbbüslərinin əksəriyyətində gənclərin mənalı iştirakının təmin olunmaması vəziyyəti daha da çətinləşdirir. Bu maneə ölkədə gənclər, sülh və təhlükəsizlik gündəliyinin həyata keçirilməsinə mane olan əsas problemlərdən biridir.

Gənclərin münaqişələrin transformasiyası prosesinlərində aktiv iştirakını təşviq edən bir neçə təşəbbüsü vurğulamaq vacibdir. Konkret olaraq, 2000-ci illərin əvvəllərində Azərbaycan və Ermənistan gənclərinin fəal iştirakının təmin edilməsinə daha çox diqqət yetirilməklə xalq diplomatiyası vasitəsilə münaqişələrin transformasiyası səylərində artımvar idi. Üçüncü tərəf ölkələrdə azərbaycanlı və erməni gənclərinin görüşlərinin təşkil olunmasının əsas məqsədi qarşılıqlı təmasların sayını artırmaq və sosial müqavilə tezisi əsasında qarşılıqlı nifrət və düşmənçiliyi aradan qaldırmaq idi. Hər iki ölkənin tanınmış sülh qurucularının təşəbbüsü ilə həyata keçirilən Tekali Prosesində azərbaycanlı gənclərin fəal iştirakı bu baxımdan nümunəvi addım idi.

Müharibələrarası danışıqlar prosesində tədrici durğunluq münaqişənin transformasiyası sahəsinə əhəmiyyətli təsir göstərərək hər iki tərəfdə laqeydliyin artmasına və çoxsaylı təşəbbüslərin tədricən dayandırılmasına gətirib çıxardı. Üstəlik, bu, cəbhə xəttində artan düşmənçiliklə müşayiət olundu və nəticədə iki cəmiyyət arasındakı uçurum daha da dərinləşdi. 2020-ci ildə İkinci Qarabağ Müharibəsi bu bölünmələri daha da gücləndirdi və əksər transformativ cəhdlərə son qoydu. Halbuki, müharibəyə və onun ağır nəticələrinə baxmayaraq, bir sıra

təşəbbüslər onun fəsadlarını uğurla dəf edərək qarşılıqlı əlaqələri inkişaf etdirməyə davam etdi. (məsələn, “IMAGINE” - Münaqişələrin Transformasiyası Mərkəzi).

Bu kontekstdə Azərbaycanda və qonşu ölkələrdə GST gündəliyinə uyğun olaraq gənclərin sülh quruculuğu prosesinə cəlb edilməsi Cənubi Qafqazda həm cəmiyyətdaxili, həm də cəmiyyətlərarası dialoqun və nəticə etibarilə davamlı sülhün təmin edilməsi üçün həyati önəm kəsb edir. Buna nail olmaq üçün iştirak, tərəfdaşlıq, gənclərin qorunması və reinteqrasiyası kimi əsas GST məqsədləri Milli Fəaliyyət Planlarına (MFP) və qadınlar, sülh və təhlükəsizlik (QST) kimi digər strateji təşəbbüslərə inteqrasiya edilməlidir.

Sülh quruculuğu prosesinə gənclərin daha böyük hissəsini cəlb etmək üçün Azərbaycan hökuməti gənc əhalinin ictimai həyatın müəyyən sahələrində fəal iştirakını təşviq edən mövcud siyasətdən bir addım da irəli getməli və gənc fərdlərə siyasi qərarların tətbiqinin bütün mərhələlərində söz haqqı verməklə onların sülh quruculuğunda mənalı iştirakı üçün imkanlar yaratmalıdır. Münaqişə ilə bağlı təcrübələrini müstəqil şəkildə əks etdirmək qabiliyyətini və bacarıqlarını sübut etmək üçün gənclərə şərait yaradılması onların sülh və təhlükəsizlik layihələrində (pro) fəal iştirakını təşviq etmək üçün vacibdir. Beləliklə, mənalı iştirakın asanlaşdırılması məşğulluq imkanlarının, öz fikirlərini ifadə etmək azadlığının, qəbuledici auditoriyanın və qərarların formalaşmasına təsir göstərmək bacarığının təmin edilməsini tələb edir.

İlk öncə, (geo)siyasi şərait ölkədə geniş spektrli çağırışlarla sülh quruculuğunu təşviq etmək və gəncləri bu səylərə cəlb etmək səylərinə mane olur çünki Azərbaycan Ermənistanla uzun müddətli münaqişə şəraitindədir. 2020-ci ildə İkinci Qarabağ Müharibəsi Azərbaycan cəmiyyətində dinc birgəyaşayış perspektivləri ilə bağlı narahatlıqların yeni dalğasına səbəb oldu ki, bu da Qarşı tərəf barədə daha müsbət narrativlərin yaranması üçün yeni imkanlar açmaqla bərabər iki ölkə arasında əlaqələrin gücləndirilməsini müstəsna dərəcədə çətinləşdirir. Azərbaycan gənclərinin imkanları onunla məhdudlaşır ki, yaşlı

nəsildən fərqli olaraq, onların çoxunun erməni həmkarları ilə birbaşa əlaqəsi olmayıb və bu, güclü ünsiyyət qurmağı çətinləşdirir. Digər tərəfdən, Azərbaycan gəncliyi Ermənistanla daim mövcud olan gərginlikdən təsirlənən kövrək dövlət quruculuğu prosesinin ortasındadır. Azərbaycandakı GST gündəliyi Ermənistanla münaqişənin həlli və sonrakı barışıqla sıx bağlı olduğundan, gənclərin sülh quruculuğu prosesində iştirakı xarici şəraitdən, xüsusən də Ermənistanın ictimai gündəmindən çox asılıdır. Gənclər dialoqu və sülh fəallarının Ermənistan-Azərbaycan münaqişəsi kontekstində sülh anlayışına konkret baxışlarının olmaması məsələni daha da çətinləşdirir. Nəhayət, pisləşən geosiyasi şərait və qonşuluqda güclənən təhlükəsizlik rəqabəti diqqəti sülhdən yayındırır, həqiqi sülhməramlı səylərə ortaq siyasi sədaqəti azaldır və nəticədə qarşı tərəfin, xüsusən də gənc nəsil arasında təhlükə obyekti imicini gücləndirir.

Digər problem Birləşmiş Millətlər Təşkilatı nəzdində dəqiq bir əlaqə mərkəzinin olmamasıdır ki, bu da həm hökumət, həm də gənclər arasında gözləntilərin aydın olmaması ilə nəticələnir. Heç bir qurumun rəhbərlik etmədiyi halda, səyləri əlaqələndirmək və gənclər, sülh və təhlükəsizliklə bağlı xüsusi ehtiyac və narahatlıqları effektiv şəkildə həll etmək çətinləşir. Bundan əlavə, müxtəlif maraqlı tərəflər, o cümlədən hökumət rəsmiləri və gənclər arasında GST gündəliyi haqqında məlumatlılıq və anlayış məhduddur. Bu, Azərbaycanda insanların üzləşdiyi əsas inkişaf problemlərini həll etmək məqsədi daşıyan BMT-nin dəstəklədiyi Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) uğurla həyata keçirilməsi praktikası ilə tamamilə ziddiyyət təşkil edir. İndiyədək Azərbaycan hökuməti dayanıqlı inkişafın sosial-iqtisadi aspektlərini əhatə edən 17 DİM, 88 hədəf və 119 göstəricinin reallaşdırılmasına üstünlük verib və müvafiq sahələrdə daha dərin əməkdaşlıqda maraqlı olduğunu göstərən bir neçə könüllü milli icmal hesabatı təqdim edib. Yerli qeyri-hökümət təşkilatlar (QHT) də Azərbaycanda DİM-lərin həyata keçirilməsində fəal iştirak ediblər. Bu təcrübə, şübhəsiz ki, qısa müddət ərzində GST ilə bağlı məqsədlərə nail olmaq üçün bələdçi rolunu oynaya bilər. Respondentlərin bəziləri gənclər, sülh və təhlükəsizlik gündəliyini milli müzakirə

səviyyəsinə qaldırmaq üçün başlanğıc nöqtəsi kimi yaxşı informasiya kampaniyasına ehtiyac olduğunu vurğulayırlar.

Gənclər üçün GST ilə bağlı fəaliyyətlərdə, əsasən də sülh quruculuğu ilə bağlı səylərdə iştirak etmək baxımından çətinliklər arasında gənc fəalların da izah etdiyi kimi gənclərin məşğulluğu problemləri də daxil olmaqla müəyyən sosial-iqtisadi problemlər ola bilər. Azərbaycanda gənclərin aparıcılığı ilə təşkil olunan sülhməramlı təşəbbüslər üçün xüsusi maliyyənin olmaması gənclərin münaqişələrin transformasiyası üçün səylərini davam etdirmələrini daha da çətinləşdirir.

İkincisi, Azərbaycanda gənclərin sülh quruculuğu səylərində iştirakı bir sıra struktural problemlərlə üzləşir. Bu maneələrdən biri gənclərin rəhbərlik etdiyi sülh quruculuğu təşəbbüslərinə institusional dəstəyin olmamasıdır. Bir çox ictimai və vətəndaş cəmiyyəti təşkilatları gənclərin sülh quruculuğu cəhdlərində iştirakını prioritet hesab etmir ki, bu da gənclərin resurslara və imkanlara çıxışını çətinləşdirir. Məsələn, bir neçə respondent Azərbaycan gənclərinin Track 1 və Track 2 diplomatiyasında mənalı təmsilçiliyinin olmadığını və ya qeyri-kafi olduğunu qeyd edərək, onların iştirakının mahiyyət etibarilə heç bir faydasının olmadığını vurğulayır. Onlardan bəziləri xüsusilə vurğulayırlar ki, gənclər yalnız kiçik və nisbətən əhəmiyyətsiz səviyyələrdə layiqincə təmsil olunur, qərar qəbuletmə prosesinə isə yaşlı, dövlət tərəfindən təyin olunmuş kadrlar rəhbərlik edir. Bundan əlavə, dövlət tərəfindən verilən qrantlar çox vaxt ənənəvi təşkilatları və oturuşmuş qurumları hədəf alır ki, bu da gənclərin öz təşəbbüslərini həyata keçirmək və qabiliyyətlərini nümayiş etdirmək imkanlarını məhdudlaşdırır. Müvafiq ictimai sektor qurumlarında gənclər tərəfindən irəli sürülən gündəliyin olmaması problemi kontekstində gənclər arasında təşkilati büdcə tərtibatı təcrübəsinin olmaması məsələsi də əlavə bir problemdir. Öz növbəsində, Gənclər Fondundan qrant alan gənclər təşkilatlarının əksəriyyətinin fəaliyyət göstərmədiyi və proseslərə mənalı bir töhfə etmədiyi iddia edilir.

Eyni zamanda, müxtəlif layihələrin icrası tez-tez təşkilati məsələlərlə əlaqədar olaraq axsayır, məsələn, müvafiq mexanizmlər aşağı səviyyədə fəaliyyət göstərdiyi üçün iştirakçılar qeydiyyatla bağlı problemlərlə üzləşə bilər. Bu tipli adi məsələlərin həll olunmamasını məsul funksionerlər maliyyə stimullarının olmaması ilə izah edirlər: arqument budur ki, sektorda pul çox azdır, ona görə də onlar ortaya fəal mövqe qoymağa həvəs göstərmirlər. Hazırda sosial layihələr həyata keçirən QHT-lər maliyyə əməliyyatlarının standartlaşdırılmış şəkildə həyata keçirilməməsindən əziyyət çəkirlər: bəzi banklar onlara operativ və şəffaf xidmət göstərdiyi halda, digərləri həddindən artıq tələblər qoya, xərclənən hər bir qəpiyi yoxlaya və beləliklə, layihələrin büdcəsinin icrasını təhlükə altında qoya bilərlər. Üstəlik, anonim respondentin qeyd etdiyi kimi, Azərbaycanda QHT-lər arasında keyfiyyət bölgüsü çox qeyri-bərabərdir: onların bəziləri sabit fəaliyyət göstərən institutlar kimi özünü sübut etsə də, bir çoxları əsasən layihədən-layihəyə işləyir və buna görə də öz planlarını açıq ifadə edə və xüsusi sosial dəyər yarada bilmirlər.

Digər bir struktural problem gənclərin sülh quruculuğu və münaqişələrin həlli ilə bağlı qərar qəbuletmə proseslərində iştirak imkanlarının məhdud olmasıdır. Azərbaycanda gənclər siyasətinin müəyyən çatışmazlıqları var ki, bu da gənclərin hüquqlarının gücləndirilməsinə və onların ictimai həyata daha aktiv cəlb olunmasına mane olur. Məsələn, gənclərin Azərbaycan parlamentində təmsilçiliyi məhduddur, çünki gənc deputatların sayı azdır. Nəticə etibarı ilə onların qərar qəbuletmə proseslərinə təsiri daha çox simvolik xarakter daşıyır. Əvəzində, hazırda çox məhdud sayda imkanlar mövcuddur ki, bunlar əsasən Avrasiya Əməkdaşlıq Fondu Azərbaycan, “IMAGINE” Münaqişələrin Transformasiyası Mərkəzi, “EU4Dialogue” və başqaları kimi beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən təşəbbüsləri əhatə edir. Bundan əlavə, bir sıra digər qısamüddətli təşəbbüslər də var ki, bunlar özü-özlüyündə gənclər arasında mənalı iştirakın təşviq edilməsi üçün sadəcə qeyri-kafi və simvolikdir. Bu qısamüddətli birdəfəlik layihələrin nəzərəçarpacaq nəticələri və düzgün qiymətləndirmə mexanizmləri yoxdur.

Digər problem milli kurikulum çərçivəsində sülh təhsili proqramlarının olmamasıdır. Sülh dəyərlərinin və münaqişələrin həlli bacarıqlarının təhsil sisteminə inteqrasiya olunmaması gəncləri cəmiyyətdə sülhü təşviq etmək üçün lazımi vasitələrdən məhrum edir. Bundan əlavə, yerli dildə təlim imkanlarının və tədris materiallarının məhdud olması sülh quruculuğu təşəbbüslərində səmərəli iştirak üçün tələb olunan əsas bacarıq və biliklərin inkişafına mane olur. Sülh və münaqişələrin öyrənilməsinə dair materiallar yerli dildə əlçatan olmadıqda, gənclərin özlərini maarifləndirməsi, dialoqa girməsi və münaqişənin transformasiyası səylərinə töhfə verməsi çətinləşir. Beləliklə, əlçatan material olmadan gənclər münaqişələrin həllinə yönəlmiş proseslərdə özlərini təcrid olunmuş və imkansız hiss edirlər. Nəticə etibarı ilə, bu çağırışlar sülh quruculuğu ilə fəal məşğul olan gənclərin sayının azalmasına səbəb olur və belə görünür ki, dövlət bu vəziyyəti yaxşılaşdırmaq üçün fəaliyyət planı irəli sürməkdə həvəssizdir. Bununla belə, vurğulamaq vacibdir ki, effektiv sülh quruculuğu gənclərin də özəyini təşkil etdiyi yerli icmaların fəal iştirakından və müxtəlif layihələrə aktiv cəlb olunmasından asılıdır.

Gender bərabərsizliyi sülh quruculuğu səylərində iştirak etmək istəyən gənc qadınlar üçün ciddi maneələr yaradan amillərdən biridir və Azərbaycanda aktual problem olaraq qalmaqdadır. Sülh və təhlükəsizliklə bağlı qərar qəbuletmə proseslərində qadınlara qarşı olan ayrı-seçkilik və məhdud imkanlar hələ də mövcuddur. Bir çox QHT-lərdə qadınlar rəhbər vəzifələr tutsalar da, diplomatiyanın 1 və 1.5 istiqamətləri üzrə, eləcə də təhlükəsizlik sahəsində qadınların təmsilçiliyi məhduddur. Bu tendensiya cəmiyyətin köklü patriarxal və mühafizəkar təbiəti ilə izah edilə bilər, bu da cəmiyyətdə mövcud olan gender ayrı-seçkiliyini gücləndirir , münaqişəni isə əsasən kişi sahəsi kimi əbədiləşdirir. Ənənəvi sosial normaların yaratdığı problemlərə əlavə olaraq, hökumətin qadınların iştirakını təşviq etmək təşəbbüsünün olmaması tərəqqiyə daha çox mane olur. Bundan əlavə, vətəndaş cəmiyyəti gender bərabərliyini effektiv şəkildə təbliğ və təşviq etmək səylərində uğursuz olur. "Feminizm" sözü də bir sıra qeyri-hökumət təşkilatları tərəfindən ehtiyatla qarşılanır. Müəyyən edilmiş digər

bir problem siyasət, dövlət quruluşu və əlaqəli sahələr üzrə qadın mütəxəssislərin olmamasıdır. Digər tərəfdən, qadınların sülh quruculuğunda və buna bənzər təşəbbüslərdə iştirak etmələri müəyyən dərəcədə daha asandır, çünki bu, kişilərin bu sahədə tez-tez qarşılaşmalı olduqları "vətən xaini" ittihamlarına səbəb olmur. Eyni zamanda, gənc qadınların sülh quruculuğu, könüllülük və bu cür digər fəaliyyətlərdə sayı əslində kişilərə nisbətən daha yüksəkdir, çünki onlar maddi baxımdan daha az təzyiqlə qarşılaşırlar və hərbi xidmətə də ehtiyac duymurlar.

Qeyd edilməlidir ki, Azərbaycan 2018-ci ildə İstanbul konvensiyasını imzalayıb, lakin hələ də onu ratifikasiya etməyib. Bu Konvensiyanın ratifikasiyası və həyata keçirilməsi gender əsaslı zorakılıqla mübarizə və gender bərabərliyinin təşviqi üçün çox vacibdir. Bu öhdəlik qadınların sülh quruculuğu proseslərində iştirakına mane olan struktur maneələri və ayrı-seçkilik təcrübələrini aradan qaldırmaq üçün əlverişli şərait yaratmağa kömək edə bilər. Konvensiya hüquqi bazanı gücləndirməklə, zərərçəkənlərə dəstək xidmətləri göstərməklə və gender əsaslı təhsil və məlumatlılığı təşviq etməklə gənc qadınları gücləndirə və onların sülh quruculuğu təşəbbüslərində fəal iştirakını təşviq edə bilər.

Gənclərin qərar qəbul etmə prosesində iştirakını təsir edən başqa bir amil də psixolojidır: bəzi respondentlər ölkədə müstəqil düşüncənin prioritet olmadığını iddia edirlər, buna görə də bir çox gənc öz şəxsiyyətlərini ifadə etməkdə və fərdi yanaşmanı formalaşdırmaqda çətinlik çəkirlər. Burada ənənəvi tərbiyə modellərinin mənfi rolunu qeyd etmək vacibdir, çünki bir çox ailə övladlarının özlərini ifadə etməsinə icazə vermir.

Azərbaycanda növbəti ciddi problem təlim və təşəbbüs üçün yerlərin az olmasıdır. Gənclər toplaşmaq, öyrənək, əməkdaşlıq etmək və sülh quruculuğu ilə əlaqəli fəaliyyətlərdə iştirak etmək üçün xüsusi yerlər tapmaqda çətinlik çəkirlər. Xüsusilə regionlarda bu cür məkanların az olması, gəncələrin təşəbbüslərini həyata keçirmək, həmfikir insanlarla ünsiyyət qurmaq, təcrübə mübadiləsi aparmaq və sülh quruculari olaraq yetişmələri üçün vacib olan mənbələrə çıxış imkanlarını məhdudlaşdırır. Bu infrastruktur boşluğu onların lazımi bacarıqları

inkişaf etdirmək, şəbəkələr yaratmaq və ölkədə sülh quruculuğu səylərinə effektiv töhfə vermək qabiliyyətini məhdudlaşdırır. Respondentlərdən biri regionlarda gənclər layihələrinin həyata keçirilməsinə ciddi maneələr yaradan bir sıra texniki problemləri qeyd edib. Bunlardan biri ölkədə yerli səviyyədə siyasətin həyata keçirilməsi üçün standartların olmamasıdır: bəzi rayonlarda icra hakimiyyəti bu təşəbbüslərə mane olmasa da, digərlərində ya məqsəd yönlü şəkildə, ya da məlumat çatışmazlığı səbəbindən maneələr yarada bilirlər.

Azərbaycanda yerli və beynəlxalq təşkilatlar, o cümlədən BMT agentlikləri arasında zəif əməkdaşlıq da gənclərin sülh quruculuğunda məhdud iştirakı probleminin həlli və onların ölkə daxilində təbliği istiqamətində səylərinin effektivliyini azaldan ciddi problemdir. Əməkdaşlığın aşağı səviyyədə olması təşkilati strukturlarda və prioritetlərdə fərqlər və siyasi həssaslıq da daxil olmaqla müxtəlif amillərlə izah edilə bilər. Beynəlxalq təşkilatlar tez-tez yerli təşkilatların xüsusi ehtiyaclarını və perspektivlərini nəzərə almadan yalnız öz strategiyalarına əsaslanan dəstək verirlər. İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülhün möhkəmlənməsində maraqlı olan beynəlxalq təşkilatlar, əsasən, gənclərin sülh danışıqlarına cəlb edilməsinin ənənəvi üsuluna riayət etməyə davam edirlər ki, bu da bəzən dünyaya müxtəlif baxışlara malik olan gənclər qruplarına məhəl qoymur. Hökumət idarələrindən olan bəzi respondentlər müxtəlif beynəlxalq layihələr üçün iştirakçıların seçilməsində beynəlxalq təşkilatların erməni və gürcü gənclərinə qarşı qərəzliliyindən güclü narazılıqlarını bildiriblər, çünki onlar hesab edirlər ki, Azərbaycandan olan gənclərə nisbətən daha az yer ayrılır.

Yerli və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın olmaması sülh quruculuğu təşəbbüslərinin təşviqində sinerji və koordinasiyalı fəaliyyət potensialını məhdudlaşdırır. Ayrılıqda işləyərək bir-birlərinin təcrübə və imkanlarından istifadə etmək fürsətini itirirlər. Bu parçalanma yanaşması, gənclərin sülh quruculuğu prosesində qarşılaşdıqları problemlərin kök səbəblərini aradan qaldırmaq üçün boşluqların çoxalmasına səbəb ola bilər.

Bu çərçivədə, yerli və beynəlxalq qurumların gənclərə yönəlmiş öz fəaliyyətlərində daxili problemləri aradan qaldırmaqları üçün sıx əməkdaşlığa töhfə verəcək addımlar atmaq vacibdir. Bir tərəfdən, Azərbaycanda müxtəlif təşəbbüslər gənclərə yönəldilsə də, beynəlxalq təşkilatlarda, xüsusən də BMT-də bu gündəliyə fokuslanan aydın proqram yoxdur, bu isə dövlət qurumlarının müvafiq sahədə əməkdaşlığını və koordinasiyanı çətinləşdirir. Beləliklə ölkədə gənclərlə yönələn layihələr üzrə aydın vahid institusional koordinasiya mexanizminin yaradılmasına ehtiyac var. Eyni şəkildə, dövlət qurumları arasında koordinasiyanın olmaması gənclərin ehtiyaclarının müəyyənləşdirməsinə və onlar üçün imkanların yaradılmasına yönəlmiş hərtərəfli bir proqramın inkişafına mane olur. Bununla birlikdə, bəzi respondentlər problemi gənclərin təşəbbüslər barədə lazımi şəkildə məlumatlandırılmadıqlarında, fəal gənclər və cəmiyyət arasında ünsiyyətin olmamasında görürlər. Xüsusilə bölgələrdə yaşayan əhalinin müvafiq məlumatlara girişlərinin zəif olduğu qeyd olunur. Bu problem həm də mövcud proqramların legitimliyini azaldır, çünki onlar əhalinin bir çox hissəsini əhatə etmir. Ən pis halda, bu problemə görə cəmiyyətin gözündə gənclər təşəbbüslər şübhəli görülür və onlar xain kimi qəbul edilir.

Sülh təşəbbüslərdə gənclərin təmsilçiliyinə zərər verən növbəti problem, müvafiq siyasətdəki mövcud çatışmazlıqların analizinə kömək edə biləcək və onları aradan qaldırmaq üçün tövsiyələr hazırlaya biləcək məlumatların olmaması ilə əlaqəli ola bilər. Gənclərlə bağlı demoqrafik, sosial-iqtisadi göstəricilər və sülh quruculuğu səylərində iştirakı ilə bağlı hərtərəfli və müvafiq məlumatların məhdud olması gənclərin sülh quruculuğu proseslərinə cəlb edilməsinə mane olur. Buna görə, Azərbaycanda, xüsusən regionlarda gənclərlə bağlı hərtərəfli məlumat bazası yoxdur, bu da gənc əhali haqqında dəqiq məlumat toplamağı çətinləşdirir. Öz növbəsində, etibarlı məlumatların olmaması təşkilatlara gənclərin sülh quruculuğu ilə bağlı ehtiyaclarını, istəklərini və problemlərini tam anlamağa imkan vermir. Bəzi respondentlər mövcud məlumatlara hökumətin ciddi nəzarəti gənclər fəaliyyətlərin inkişafına yönəlmiş imkanları məhdudlaşdırdığını qeyd edirlər.

İkinci Qarabağ müharibəsindən sonra bir çox müharibə veteranları uzunmüddətli ixtisasartırma və peşə hazırlığı proqramları vasitəsilə cəmiyyətə reinteqrasiya üzrə mövcud proqramların zəif icrası səbəbindən məşğulluq imkanlarından və sülh quruculuğu proseslərindən kənarda qalırlar. Azərbaycan hökuməti hələ sülh mədəniyyətini təbliğ etməyə yönəlmiş müvafiq təhsil imkanları vasitəsilə əmək tələbatını ödəmək üçün onların bacarıqlarına sərmayə qoymaqla müharibədən zərər çəkmiş gənclərin ehtiyaclarını nəzərə alan hərtərəfli reinteqrasiya və reabilitasiya planlarını irəli sürməyib. Müharibədən sonrakı 3 il ərzində müharibə veteranlarının ehtiyaclarını ödəmək üçün bir neçə addım atıldı. Hökumət, xüsusi müalicə, əməliyyat və reabilitasiya proqramları da daxil olmaqla yaralı qazilər üçün Sağlamlıq və müalicə proqramlarına başladı.

Müharibənin psixoloji təsirini tanıyan hökumət, qazilər üçün münaqişə zamanı yaşadıqları travmaların öhdəsindən gəlmələrinə kömək etmək üçün psixoloji dəstək xidmətləri yaradıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan Sosial Xidmətlər Agentliyi psixoloji dəstək çağrı mərkəzləri yaradıb və veteranlara yardım göstərmək üçün xaricdən (məsələn, Türkiyədən) həkimləri dəvət edib. Dövlət və özəl sektorlarda işə götürülməsinə üstünlük verən təşəbbüslər də daxil olmaqla, onlara iş imkanları yaratmaq üçün addımlar atılır.

Bununla birlikdə, müharibədən təsirlənən gənclərə dövlət dəstəyi, ictimai həyatda qarşılaşdıqları çətinlikləri aşmaq üçün yetərli olmaya bilər. İkinci Qarabağ müharibəsi iştirakçılarına ayrılan aylıq maliyyə dəstəyi Azərbaycanda yaşayış qiymətlərin artması və inflyasiyanın səviyyəsi kontekstində aşağı hesab edilə bilər. Bunun üzərinə artan işsizlik nisbəti müharibədən təsirlənən gənclər üçün vəziyyəti daha da çətin edir. Eyni zamanda, qazilər bir çox bürokratik problemlər və institusional maneələr səbəbindən sığorta şəhadətnamələrini almaqda çətinlik çəkirlər. Bu cür maneələr yalnız veteranların fiziki və psixoloji vəziyyətinin pisləşməsinə gətirib çıxarır, bu da yaxın gələcəkdə lazımi tədbirlər görülməsə, intihar cəhdlərinin və digər əlaqəli sosial problemlərin artmasına səbəb ola bilər. Müharibə travmaları ilə işləmək üçün hərbi psixoloqların olmaması da veteranların reabilitasiyası məsələsində böyük bir problem yaradır. Yerli bələdiyyələr və

inzibati mərkəzlər müharibədən təsirlənən gənclərin və şəhid ailələrinin problemlərini həll etmək üçün məntəqələr yaradıblar, lakin bunun üçün institusional potensial və əksər hallarda peşəkarlıq aşağı səviyyədədir. Gənc qazilər, hökumətin psixoloji problemlərini aradan qaldırmaq və cəmiyyətə yenidən inteqrasiya olunmaq üçün asanlıqla təmin edə biləcəyi sosiallaşma sahələrinə də ehtiyac duyurlar.

Problemin mahiyyəti, müəyyən dərəcədə, qarşı tərəfin gənclərin reabilitasiya və reinteqrasiya prosesinə tam sadiq olmadığını düşünən hökumət və vətəndaş cəmiyyəti qrupları arasında ünsiyyətin olmamasıdır. Beləliklə, bu mövzuda səylərin əlaqələndirilməsi yalnız səmərəliliyi artırmayacaq, həm də gənclərin ictimai və siyasi həyata cəlb edilməsi üçün yeni imkanlar açacaqdır. Ən əsası, müharibədən əziyyət çəkən gənclərin uğurlu reinteqrasiyası gələcək nəsillərə bu travmaların ötürülməsinin qarşısını alacaq və bununla da sülh quruculuğunda fəal iştirak edənlərə təzyiqi azaldacaq.

## AZƏRBAYCANDA GƏNCLƏR, SÜLH VƏ TƏHLÜKƏSİZLİK GÜNDƏLİYİNİN TƏŞVİQİ ÜÇÜN İMKANLAR

Azərbaycanda, gənclərin GST gündəliyinə cəlb olunması həm rəsmi (institulaşdırılmış), həm də qeyri-rəsmi (institutlaşdırılmamış) üsullarla həyata keçirilə bilər. Mürəkkəb sosial və siyasi bir qrup olaraq, Azərbaycan gəncliyi rəsmi və qeyri-rəsmi müstəviləri əhatə edən sıx əlaqə və bağlara malikdir. Gənclər sülh danışıqlarındakı rəsmi təmsilçiliyinin çərçivəsindən kənar şəkildə münaqişə və təhlükəsizlik məsələlərinə dair rəy və təkliflərini verərək GST gündəliyinə faydalı töhfələr verə bilərlər. Gənclərə qərarvermə proseslərinə daha yaxşı rəsmi çıxış imkanlarını vermək və onları sülh danışıqlarında iştirak edən nümayəndə heyətlərinə qatmaq onlarda sülh quruculuğunda ciddi maraq oyada bilər. Məcburi köçkünlər daxil olmaqla, bir çox gənc azərbaycanlılar Azərbaycan hökumətinin və xarici ölkələrin təqaüdləri hesabına xaricdə təhsil alıb hazırda regionda sülh və

sabitliyin qurulması üçün kreativ həllər təklif etmək iqtidarında olan savadlı gənclər təbəqəsini təşkil etməkdədir. Bu baxımdan, gənc parlament üzvləri və yüksək vəzifəli dövlət qulluqçuları yaşıdları üçün körpü və rol modeli timsalında çıxış edərək dinc birgəyaşayışa yenilikçi və gələcəkyönümlü yanaşmaların tətbiqinə yol aça bilərlər.

Gənclərin cəlb olunmasının institutlaşdırılmamış üsullarına gəldikdə, hökumət ortaq məqsədlərə nail olmaq və sülh perspektivlərinə əngəl yaradan mənfi təsirlərinin qarşısını almağın naminə BMTTŞ-nin 2250 nömrəli qətnaməsi ilə uyğun olaraq yerli icmalar və QHT-lərlə əməkdaşlıq çərçivələrini yarada bilər. Təhlükəsizlik sektorunun ishalatları, münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq sistemləri, eləcə də sülh ssenarilərinə nəzəri yanaşmalar kimi mövzularda texniki biliklərə malik gəncləri daxil edən işçi qrupları və ya məşvərət komissiyaları sülh quruculuğu prosesinə səmərəli şəkildə töhfə verə bilərlər. Gənclərin bilik və bacarıqlarından məsləhətləşmə məkanları vasitəsilə istifadə etmək üçün hökumət bacarıqların artırılması üzrə fəaliyyəti planlaşdıra və əldə edilən nəticələri ümumi proqram tətbiqi prosesi ilə uyğunlaşdıracaq gənc peşəkar və təlimçiləri işə götürə bilər. Həmin layihələr gənclər arasında əhəmiyyətli maraq oyada bilsə də, onların müxtəlif qruplardan, kənd və balaca şəhərlərdən də olan gəncləri geridə qoymayacağını təmin etmək lazımdır.

GST çərçivəsinin Azərbaycanda uğurlu tətbiqi gənclərin sülh quruculuğu və münaqişələrin qarşısının alınmasında iştirakının əhəmiyyəti üzrə ictimai məlumatlılığın artırılması üçün uyğun platform təmin edə bilər. Azərbaycanın gənc və vətəndaş cəmiyyəti təşkilatları GST çərçivəsi və onun ölkədə sülh quruculuğu cəhdlərinə dəstək vermək üçün potensialı barədə məlumat yaymaq üçün BMT qurumları və digər tərəfdaşlarla işləyə bilərlər. O, gənclərin sülh quruculuğu və münaqişələrin qarşısının alınmasına üstünlük verən siyasətləri hazırlamaq üçün istifadə oluna bilər. Sözügedən addımlar gənclərin siyasət hazırlanmasında fəal iştirakını təmin edən mexanizmlərin yaradılmasını, eləcə də gənclərin irəli sürdüyü təşəbbüslərə maliyyə və digər resursların ayrılmasını daxil edə bilər. Bu baxımdan,

GST gündəliyinə aid fikir mübadiləsi və sıx əməkdaşlığı təşviq etmək üçün qonşu ölkələrlə tərəfdaşlıqları gücləndirmək faydalı ola bilər.

Təhsil, ölkədə GST gündəliyin təşviqində aparıcı rolunu oynaya bilər və oynamalıdır. Yerli təşkilatlarla əməkdaşlıq edərək, BMT qurumları sülh və sosial ədaləti sövq edən və gəncləri sülh quruculuğuna töhfə verə bilmək üçün lazım olan bacarıq və biliklərlə təmin edəcək təhsil proqramlarını maliyyələşdirə bilər. Bu, sülh təhsilinin daha geniş gənc çevrələrinə əlçatan etmək və onların sülh tərəfdarları olma potensialını aktivləşdirmək baxımından olduqca vacibdir . Aşağıdan yuxarı sülh quruculuğuna və sülh dəyərlərinin gənclər, xüsusilə də gənc qadınlar arasında yayılmasına daha çox dövlət dəstəyini ayırmağa ehtiyac var. Daha spesifik olaraq, layihəmiz üçün müsahibə vermiş bəzi respondentlər bu dəyərlərin orta məktəb səviyyəsində təşviq olunmalı olduğunu, lakin bunun halhazırda mümkün olmadığını bildirmiş və əlavə etmişdilər ki, digər tərəflə görüşüb danışmaq marağı normallaşdırılmalı və indiki stiqmasından azad olunmalıdır . Respondentlərdən biri təklif etmişdir ki, gənclərə yönəlmiş sülh layihələri daha çox nəticəyönümlü olmalı və həddən artıq ümumi və qeyri-aydın konsepsiyalardan qaçınmalıdır . Həmçinin, münaqişə araşdırmaları, dialoq və transformasiya təlimləri daxil olmaqla sülh təhsili üzrə fəaliyyət canlandırılmalıdır. Hökumət daha çox gəncləri dünyanın ən yaxşı universitetlərinə göndərməyi nəzərdən keçirməlidir ki, onlar lazımi biliklər və dünyagörüşünə sahib çıxaraq sosial liderlərə çevrilə bilsinlər . Bundan əlavə, gənclərin iştirakçılığının stimullaşdırılmasına yönəlmiş vahid və davamlı siyasət yürütmək məqsədilə Təhsil və Elm Nazirliyi ilə Gənclər və İdman Nazirliyi öz fəaliyyətlərini Prezident Aparatının və digər hökumət qurumlarının müvafiq rəsmiləri ilə koordinasiya etməlidir . Təhsil proqramlarından əlavə, Azərbaycanda sosial media istifadəsinin geniş olduğu üçün, sosial media platformaları çox saylı gənclərin GST gündəliyinə cəlb olunması üçün güclü bir vasitə ola bilər.

Sözügedən təşəbbüslərdən əlavə, gənclərin sülh quruculuğu prosesində qarşılaşdığı maneələrin aradan qaldırılması xüsusi tədbirlər tələb edir. Münaqişənin təsiri altında olan bölgələrdə gənclər yönümlü daha çox layihələr

yaratmaq və onların tətbiqinə maliyyə dəstəyini ayırmaq son dərəcədə vacibdir. Həmin rayonlarda yaşayan fərdlər yeni imkanlarla təmin olunduqca sülh quruculuğu cəhdlərinə fəal dəstək verə və müsbət dəyişikliyin agentlərinə çevrilə bilərlər. Həmçinin, gənclərin apardığı sülh quruculuğu layihələrinin tətbiqinə mane olan bürokratik hədlərin azalması istiqamətində addımlar atılmalıdır: inzibati maneələrin minimallaşdırılması gənc sülh qurucularına öz təşəbbüslərini daha səmərəli şəkildə həyata keçirməyə imkan verə bilər . Bu baxımdan, gənclərlə bağlı layihələri maliyyələşdirən layihələr üçün vergi güzəştləri və digər imtiyazları təmin edəcək korporativ sosial məsuliyyət üzrə qanunvericiliyin qəbul olunmasına ehtiyac var.

Təlimlər və təşəbbüslər üçün fiziki məkanların çatışmazlığı kimi infrastruktur problemlərinin həll olunması məsələnin digər vacib bir aspektidir . Bu cür məkanlar (xüsusilə də rayonlarda) gənc sülh qurucularını lazımi resurslar, dəstək, eləcə də təlim və seminarlar üçün imkanlarla təmin edərək qovşaq rolunu oynaya bilər. Qeyd olunmalıdır ki, son illərdə bir çox rayonlarda çox saylı Gənclər Evləri və Gənclər Mərkəzləri Gənclər və İdman Nazirliyi tərəfindən fəaliyyətə verilmişdir. Lakin respondentlər sülh quruculuğu ilə maraqlanan gənclər arasında icma hissini sövq edəcək, bilik və ideyalar mübadiləsini asanlaşdıracaq inklüziv məkanların yaradılmasını istərdilər. Bu cür məkanlar gənclərin səlahiyyətlərinin artırılması üçün əlverişli mühit və onlara icmaları arasında sülh dəyərlərinin təşviqinə fəal töhfə verməyə imkan yarada bilər.

Gənclərə aid məlumatların məhdudiyyəti problemini ünvanlamaq üçün yerli və beynəlxalq təşkilatlarla əməkdaşlığın təşviq olunması çox faydalı olardı. Spesifik təcrübəyə malik qurumların (“CRRC”, “Pew” və s.) potensialından istifadə etməklə Azərbaycan gənclərinə dair güvənli və əhatəli məlumatların əlçatanlığını təmin etmək mümkündür. Lazımi əməkdaşlıqların qurulması gənc əhalinin demoqrafiyası, sosial-iqtisadi göstəriciləri və sülh quruculuğu proseslərində fəallığı ilə bağlı dəqiq məlumatları əldə etməyə kömək edə bilər. Həmçinin, bürokratik prosedurların asanlaşdırılması və məlumat yığılmasına olan məhdudiyyətlərin azaldılması olduqca vacibdir.

Kargüzarlığın sistemləşdirilməsi və dövlət qurumları arasındakı əməkdaşlığın təkmilləşdirilməsi informasiyanın səliqəli və vaxtlı şəkildə yığılmasını asanlaşdıra bilər. Bu da öz növbəsində, dövlət qurumlarına, QHT-lərə və digər maraqlı tərəflərə gənclərin sülh qurulucuğunda iştirakı üçün məlumat əsaslı strategiyaları hazırlamaq üçün yeni imkanlar açacaq. Bundan başqa, tələb olunan infrastruktur, texnologiya və məlumat bazalarına investisiyaların yatırılması gənclərə aid informasiyanın səmərəli şəkildə yığılması, saxlanması və təhlili üçün olduqca vacibdir. Gənclər üzrə əhatəli məlumat bazasının hazırlanmasına daha çox resursların ayrılması və qabaqcıl texnologiyaların əlçatanlığının təmin olunması məlumat yığımı və idarəçiliyi proseslərini təkmilləşdirəcək.

Bundan əlavə, gənc sülh qurucuları arasında daxili və transsərhəd şəbəkələrin qurulması əməkdaşlıq və bilik bölüşdürülməsinə təkan verəcək. Şəbəkə platformaları vasitəsilə gənclər bir-biriləri ilə əlaqə qurub, ideya və təcrübələrini bölüşdürə və sülh quruculuğu cəhdlərinə töhfə verəcək birgə təşəbbüsləri inkişaf etdirə bilərlər . Həmçinin, Azərbaycan və Ermənistandakı qurumlar arasında əlaqələrin yaradılması gənclərin barışıq təşəbbüslərində iştirakını sövq etmək üçün çox əhəmiyyətlidir. Əlaqələrin qurulması və transsərhəd əməkdaşlıq və dialoqun stimullaşdırılması gəncləri mənalı müzakirələrdə iştirak etmək üçün platformalarla təmin edə bilər.

Gənclərin fəallığının daha da artırılması baxımından tarix, sülh və gender araşdırmaları kimi sahələrdə xüsusi imkanların yaradılması çox vacibdir. Ünvanlı təhsil və təlim proqramlarının təklif olunduğu halda, gənclər sülh quruculuğuna aid spesifik sahələrdə öz peşəkarlığını artıra bilərlər . Bu cür ixtisaslaşma sülh quruculuğu sahəsinə yeni baxışlar və innovativ həllər gətirə biləcək tədqiqatçı və fəalların inkişafına zəmin yaradır. Bu baxımdan, sülh və münaqişə üzrə mövcud materialların yerli dillərə çevrilməsinə fokuslanan təşəbbüsləri təşviq etmək və dəstəkləmək olduqca vacibdir .

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

BMT Təhlükəsizlik Şurasının 2250 saylı Qətnaməsi ilə təcəssüm etdirilən gənclər, sülh və təhlükəsizlik gündəliyi gənclərin sülh quruculuğu proseslərində iştirakının təşviqində Azərbaycan üçün böyük vədlər verir. Bununla belə, bu gündəliyin effektiv həyata keçirilməsi onun ölkənin özünəməxsus ictimai-siyasi mənzərəsi çərçivəsində kontekstuallaşdırılmasını və gənclərin təcrübə və perspektivlərinin dərk edilməsini tələb edir. Gənclərin qərar qəbul etmə proseslərində qarşılaşdıqları problemlərin, onların münaqişə və zorakılığa qarşı həssaslığının və münaqişələrin qarşısının alınmasına potensial töhfələrinin həllində gənclərə və genderə həssas yanaşma vacibdir.

Bu araşdırma bir daha sübut etdi ki, gənclərin cəlb edilməsi Cənubi Qafqazda davamlı sülh və regional inteqrasiya üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda gənclər uzun illər davam edən münaqişənin nəticələrindən əziyyət çəkib və sülh prosesindən kənarda qalıb. Lakin 2020-ci ildə İkinci Qarabağ Müharibəsindən sonra sülh imkanı var və gənclərin də bu prosesə cəlb olunması bu prosesi asanlaşdıra bilər. Buna nail olmaq üçün gənclər, sülh və təhlükəsizlik gündəliyinin əsas məqsədləri, məsələn, iştirak, tərəfdaşlıq, qarşısının alınması, qorunma və əlaqəni kəsmə və re-inteqrasiyalar gələcək milli gənclər siyasətinə və/və ya milli hərəkat planına daxil edilməlidir.

Tədqiqat həll edilməli olan bir sıra problemləri nümayiş etdirir, o cümlədən: gənclərin rəhbərlik etdiyi təşəbbüslər üçün ayrılmış maliyyənin olmaması, bu da onların səylərinə daha da mane olur; gənclərin rəhbərlik etdiyi sülh quruculuğu təşəbbüsləri üçün institusional dəstəyin olmaması kimi bəzi struktur çətinlikləri; resurslara məhdud çıxış və qərar qəbuletmə proseslərində mənalı təmsilçilik; milli kurrikulumda sülh təhsili proqramlarının olmaması; gender bərabərsizliyi və gənc qadınlar üçün məhdud imkanlar; təlim və təşəbbüslər üçün məhdud yerlər; azərbaycanlı və erməni gəncləri arasında birbaşa təmas imkanlarının məhdud olması ünsiyyət və anlaşmaya mane olur; sosial-iqtisadi çətinliklər, gənclərin məşğulluğu ilə bağlı problemlər, hansı ki gənclər əsas ehtiyaclarını ödəməyə

diqqət yetirdikləri üçün sülh quruculuğu işlərinə cəlb edilməsini məhdudlaşır; yerli və beynəlxalq QHT-lər arasında qeyri-kafi əməkdaşlıq; gənclərin demoqrafiyası və sülh quruculuğuna cəlb edilməsi ilə bağlı hərtərəfli məlumatların olmaması təşəbbüslərin səmərəli planlaşdırılmasına və həyata keçirilməsinə mane olur; müharibə veteranlarının marginallaşması və onların ehtiyaclarını ödəmək üçün hərtərəfli reinteqrasiya planlarının olmaması; Sülh quruculuğu səylərinə və icmalararası dialoqa mane olan siyasi qeyri-sabitlik və davam edən gərginlik.

Tədqiqatın nəticələri, ilk növbədə, sülh quruculuğu ilə fəal məşğul olan vətəndaş cəmiyyəti nümayəndələri, gənc sülh fəalları, siyasətçilər və hökumətə bağlı təşkilatların nümayəndələri ilə şəxsi müsahibələrə, eləcə də digər ölkələrin müvafiq təcrübəsinə əsaslanır.

Bu tapıntılara əsasən, adekvat, müasir gənclər, sülh və təhlükəsizlik strategiyasının hazırlanması və həyata keçirilməsi ilə bağlı bir sıra tövsiyələr hazırlanmışdır. Bu tövsiyələr müxtəlif qurumlara ünvanlanır. Aşağıda ölkədə əsas maraqlı tərəflərə, yeni dövlət qurumlarına, beynəlxalq təşkilatlara və vətəndaş cəmiyyətinə ünvanlanmış ümumi tövsiyələr toplusu verilmişdir. Bu tövsiyələrdən bəziləri, daha dəqiq desək, daha sonra ayrıca alt fəsil kimi göstərilir və daha ətraflı şəkildə təqdim olunur.

## ÜMUMİ TÖVSİYƏLƏR

### Dövlət qurumlarına:

Gənclər strategiyalarının yenilənməsi zəruri görünür, çünki onların əksəriyyəti 2020-ci ildən əvvəldir. Lakin İkinci Qarabağ Müharibəsi nəinki regionda geosiyasi reallıqları dəyişdirdi, həm də yeni, müharibədən sonrakı şərtləri ortaya qoydu və ölkə daxilində yeni dinamikaya öncülük etdi. İnnovativ gənclər strategiyaları, o cümlədən qanunvericilik bazaları bu dəyişiklikləri həll etməlidir, məsələn:

- gənclərlə bağlı qanunvericilik bazasının gənclər, sülh və təhlükəsizlik sütunlarına cavab verəcək şəkildə yenilənməsi, gənclərin ictimai və siyasi işlərdə və qərarların qəbul edilməsində iştirakının təmin edilməsi. 2015-2025-ci illər üçün Azərbaycan Gənclərinin İnkişaf Strategiyası kimi gənclərlə bağlı rəsmi sənədlər gənclərlə iş üzrə yerli icmalar və qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq üçün bir çox imkanlar təqdim edir, lakin iştirak və qarşısının alınması sütunlarında təkmilləşdirmələr aparmaq üçün hələ gediləsi yol var. Sənədin İkinci Qarabağ müharibəsindən əvvəl təsdiq edildiyini nəzərə alaraq, gənclərin sülh quruculuğu prosesində fəal iştirakı ilə bağlı narahatlıqlar nəzərə alınmalıdır.

- yerli icmalar və qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq çərçivələrinin işə salınması, məsələn, gənc fərdlər üçün xüsusi olaraq hazırlanmış və onların rəhbərlik etdiyi tez-tez müzakirələr və dəyirmi masa görüşləri keçirməklə. Bu müzakirələr və dəyirmi masa görüşləri gənc sülh qurucuları və hökumət rəsmiləri, vətəndaş cəmiyyəti nümayəndələri və icma liderləri kimi əsas maraqlı tərəflər arasında açıq dialoq, əməkdaşlıq və fikir mübadiləsi üçün platforma rolunu oynamalıdır.

- gənclər, sülh və təhlükəsizlik Məsləhət Şurasının yaradılması məqsədilə müvafiq beynəlxalq qurumlarla tərəfdaşlığın gücləndirilməsi. Oxşar QST (qadınlar, sülh və təhlükəsizlik) Məşvərət Şurası və DİM Məşvərət Şurasının təcrübəsinə əsaslanaraq, belə bir gənclər, sülh və təhlükəsizlik Məşvərət Şurası ölkədə bu sahə üzrə uğurlu strategiyasını əvvəlcədən planlaşdırmaq, həyata keçirmək və izləmək üçün səmərəli platforma ola bilər.

- beynəlxalq təşkilatların, xüsusən də bilavasitə Azərbaycanda GST ilə bağlı fəaliyyətlərə diqqət yetirən təşkilatların fəaliyyətinin asanlaşdırılması və həvəsləndirilməsi. Onların ölkəyə gəlişi və geri qayıtması üçün münbit zəmin yaradılması beynəlxalq təcrübəni gətirməklə yanaşı, beynəlxalq tərəfdaşlığı və Azərbaycan gənclərinin qlobal gənclik tendensiyalarına inteqrasiyasını daha da gücləndirə bilər.

- gənclərlə məsləhətləşmə və siyasətin işlənib hazırlanmasında iştirak üçün siyasətlər və mexanizmlərin işlənib hazırlanmasına dəstəyin göstərilməsi. Bununla əlaqədar olaraq, sülh quruculuğu prosesinə səmərəli töhfə vermək üçün texniki təcrübəyə malik gəncləri cəlb edən işçi qrupları və ya məsləhət komissiyaları yaradılmalıdır. Bu müzakirələr xüsusilə münaqişədən təsirlənmiş regionlardan olan gənclərin üzləşdiyi problemlərin həllinə, onların fəal iştirakı imkanlarının müəyyən edilməsinə və onların sülh quruculuğu proseslərinə cəlb edilməsi üçün konkret strategiyaların işlənib hazırlanmasına yönəldilməlidir.

- siyasət ardıcıllığını təmin etmək üçün müxtəlif qurumlar tərəfindən hazırlanan sənədlərdə və strategiyalarda GST çərçivəsinə istinad edilməsi. Bura milli siyasətlər, fəaliyyət planları, sülh quruculuğu çərçivələri və təşkilati strategiyalar daxil ola bilər. GST-ni öz rəsmi sənədlərinə daxil etməklə və onun prinsiplərini tanımaqla qurumlar gənclərin unikal rollarını və ehtiyaclarını tanımaq və dəstəkləmək öhdəliyini nümayiş etdirə bilər. Bu sənədlər xüsusi maliyyələşdirmə mexanizmlərinin yaradılması, gənclər üçün məsləhət panellərinin qurulması və onlar üçün potensialın artırılması imkanlarının təmin edilməsi kimi gəncləri cəlb etmək üçün konkret addımları əks etdirməlidir.

- gənclərlə bağlı məsələləri idarə edən mərkəzi hökumət institutları, habelə hökumətlərin mərkəzi və yerli səviyyələri arasında daha yaxşı koordinasiyanın təmin edilməsi və təşviq edilməsi. Azərbaycanın bütün regionlarında oxşar standartlara malik vahid baxışa əsaslanan vahid gənclər siyasətinin həyata keçirilməsi GST-nin uğurla həyata keçirilməsinin şərtidir. Eyni zamanda, gənclərlə bağlı vətəndaş cəmiyyəti təşkilatları arasında koordinasiya, mübadilə və şəbəkələşmə üçün səmərəli şəraitin təmin edilməsi, onların öz resurslarını birləşdirməsi və yeni sinerji yaratması da vacibdir.

- gənclərə və gənclərə yönümlü vətəndaş cəmiyyəti təşkilatlarına gənclərin səlahiyyətlərinin artırılması və inkişafına yönəlmiş GST siyasətinə uyğunlaşdırılmış əsas layihələrin həyata keçirilməsinə kömək etmək üçün maliyyə, texniki və qanunvericilik dəstəyinin verilməsi. Öz növbəsində, gənclər sahəsində fəaliyyət

göstərən bütün QHT-lərin fəaliyyətinin və imkanlarının hərtərəfli təhlili cavabdeh dövlət orqanları tərəfindən həyata keçirilməlidir ki, funksional və məsul təşkilatları sadəcə olaraq maliyyə almaq naminə formal fəaliyyətlə məşğul olmaqda maraqlı olanlardan fərqləndirsin. Bu araşdırmaya əsasən, dövlət vəsaitlərinin səmərəsiz istifadəsinin qarşısını almaq və vicdanlı aktyorları mükafatlandırmaq üçün dövlət dəstəyi yalnız birinci qrup QHT-lərə ayrılmalıdır.

- orta məktəb və universitet kurikulumlarına sülh, münaqişələrin həlli və vətəndaş iştirakına yönəlmiş təhsil modellərinin tətbiq edilməsi. Bu proses bir sıra seçilmiş qurumlarda pilot layihə kimi işə salına və uğurlu nəticələr əldə olunarsa, ümumiləşdirilə bilər. Bundan əlavə, müəllimlər və pedaqoqlar üçün sülh təhsili metodologiyaları və münaqişələrin həlli üsulları üzrə xüsusi təlimlərin keçirilməsi onlara məzmunu effektiv şəkildə çatdırmağa və tələbələri mənalı müzakirələrə cəlb etməyə imkan verəcək. Bundan əlavə, məktəblərdə və universitetlərdə sülh klublarının və məktəbdənkənar fəaliyyətlərin yaradılması gənclər arasında dialoqun, anlaşmanın və münaqişələrin sülh yolu ilə həllinin təşviqi üçün platforma rolunu oynaya bilər. Bu klublar sülh quruculuğu konsepsiyalarının fəal iştirakını və praktiki tətbiqini təşviq etmək üçün seminarlar, simulyasiyalar və interaktiv sessiyalar təşkil edə bilər.

- gənclərin qərar qəbul edən və qərarların icrası ilə məşğul olan dövlət qurumlarının işini öyrənmək imkanlarına maneəsiz çıxışını təmin edən iş mexanizmlərinin yaradılması, gənclər üçün milli və yerli səviyyədə təcrübi praktika və təqaüdlər üçün standartların və gənclərin minimum təmsilçiliyinə dair tələblərin müəyyən edilməsi; sülh və münaqişə tədqiqatları üzrə ixtisaslaşmış xaricdə təhsil almış gənclərin cəlb edilməsi.

- son vaxtlar Bakıya köçmüş insanların marginallaşmasının qarşısının alınmasına, eləcə də Azərbaycanın rayonlarından olan gənclərə daha çox diqqət yetirilməsi. Bakı ərazisinin aktiv urbanizasiya prosesini və əhalinin, əsasən də gənclərin paytaxta miqrasiyasını nəzərə alsaq, buna yerli biznes və sosial sahibkarlığın dəstəklənməsi yolu ilə iqtisadi inkişafı təşviq etməklə nail olmaq olar.

- ənənəvi və sosial mediada GST dəyərlərinin təbliği. Buna kontent yaradılması, sosial media kampaniyaları, influenserlərlə əməkdaşlıq, interaktiv platformalar, storytellinq və media orqanları ilə əməkdaşlıq vasitəsilə nail olmaq olar. Gənc auditoriya ilə rezonans doğuran nüfuzlu simalar, bloqçular və sosial media şəxsiyyətləri müvafiq məzmunu paylaşmaqla, onlayn müzakirələrdə iştirak etməklə və öz izləyicilərini sülh quruculuğu təşəbbüslərində iştirak etməyə təşviq etməklə GST dəyərlərinin mesajını gücləndirməyə kömək edə bilər. Bu strategiyalardan istifadə etməklə inklüzivlik, qeyri-zorakılıq və gender bərabərliyi kimi GST dəyərləri daha geniş auditoriyaya çata, gənclərin iştirakını ruhlandıra və müsbət sosial dəyişikliyə təkan verə bilər.

- dövlət dəstəyinin göstərilməsi və sülh qurucularının fəaliyyətinin milli maraqlara zidd olmadığını, onların ictimai həyatda fəal iştirakının təmin edilməsi, öz mesajlarını yayılması, səmərəli layihələr həyata keçirmək imkanları baxımından müvafiq salərdə müstəsna əhəmiyyət kəsb etdiyinin geniş ictimaiyyətə çatdırılması. Bu baxımdan, televiziya, radio və mətbuat kimi ənənəvi kütləvi informasiya vasitələrində, xüsusən də gənclərin üzləşdiyi müvafiq çağırışların və risklərin səsləndirilməsi və müzakirəsi üçün gənclərə daha çox yer ayrılmalıdır.

- yaş ayrılığının qarşısını almaq üçün gənc və yaşlı nəsilləri bir-birinə yaxınlaşdıran davamlı nəsillərarası dialoqun qurulması. Bu dialoq, hər iki tərəfə bir-birinin perspektivlərini və narahatlıqlarını başa düşməyə imkan verən dialoqu və dürüst və məhsuldar fikir mübadiləsini təşviq etmək üçün müntəzəm nəsillərarası forumlar və tədbirlər yaratmaqla həyata keçirilə bilər. Azərbaycan cəmiyyətində yaşlı nəslin ənənəvi üstünlük təşkil etdiyini nəzərə alaraq, onların gənclərin həqiqi qayğılarını eşitmələrini təmin etmək xüsusilə vacibdir.

- ənənəvi rollara, gender bərabərsizliyinə toxunmaq və gənc qadınların sülh quruculuğunda iştirakının təşviq edilməsi, ilk növbədə, mentorluq, şəbəkələşmə və görünmə təşəbbüsləri vasitəsilə qadınların təcrübəsini təşviq edəcək dəstəkləyici siyasət və çərçivələrin yaradılması. İkincisi, qadınların ədalətli və maneəsiz iştirakının təminatlarına xüsusi diqqət yetirilməlidir, əgər belə iştiraka

mane olan sosial-iqtisadi problemlər varsa. Üçüncüsü, Azərbaycanda BMT-nin Qadınlar Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq sülh quruculuğu sahəsində gənc qadınlar üçün potensialın artırılması və təlim imkanlarının yaradılmasına kömək edə bilər. Nəhayət, Parlamentin, müvafiq icra orqanlarının, ekspertlərin və vətəndaş cəmiyyəti fəallarının iştirakı ilə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya (CEDAW), İstanbul Konvensiyasına və digər oxşar beynəlxalq çərçivələrə qoşulmanın lehinə və əleyhinə olan arqumentlər haqqında geniş müzakirələr təşkil olunmalıdır.

- gənclərin demoqrafik göstəriciləri və sosial-iqtisadi göstəricilər üzrə dəqiq və aktual məlumatların toplanması üçün hərtərəfli gənclər məlumat bazasının və sadələşdirilmiş məlumatların toplanması proseslərinin yaradılması. Bu baxımdan ölkədə gənclərlə bağlı etibarlı və hərtərəfli məlumatların olmasını təmin etmək üçün yerli və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi faydalı olardı. Bununla belə, dəqiq və vaxtında məlumatın toplanmasını asanlaşdırmaq üçün bürokratik maneələri azaltmaq və məlumatların toplanması prosedurlarını, xüsusən də regionlarda sadələşdirmək çox vacibdir. Bu, sənədləşmə işinin sadələşdirilməsini və mərkəzi və regional dövlət qurumları arasında koordinasiyanın təkmilləşdirilməsini, daha çox resursların ayrılmasını və gənclərlə bağlı məlumatların effektiv şəkildə toplanması, saxlanması və təhlili üçün texnologiya və məlumat bazaları daxil olmaqla, zəruri infrastruktura sərmayə qoyuluşunu əhatə etməlidir.

- güclü qlobal sosial məsuliyyətli ekosistemi yaratmaqla özəl sektor təşkilatlarının bu proseslərə cəlb edilməsi. Korporativ Sosial Məsuliyyətin (KSM) hərtərəfli ekosisteminin yaradılmasına yönəlmiş layihələri həyata keçirməklə gənclərin özəl sektorda daha çox iştirakını təşviq etmək mümkün olacaq. Bu, özəl şirkətlərin sülh quruculuğu və münaqişələrin həllinə yönəlmiş KSM təşəbbüslərini inkişaf etdirməyə stimullaşdırılması, bu sahələrdə çalışan gənclərin rəhbərlik etdiyi təşkilatların dəstəklənməsi və gənc sülh quruculari üçün mentorluq və təcrübə imkanlarının təmin edilməsi ilə əldə edilə bilər.

## Beynəlxalq təşkilatlara:

- **(xüsusən BMT-yə):** BMT-nin Azərbaycandakı ofisində GST gündəliyi ilə bağlı səyləri effektiv şəkildə əlaqələndirə və istiqamətləndirə bilən xüsusi bir mərkəz yaradılması və ya şəxsin təyin olunması. Bu mərkəz ardıcıl və hərtərəfli yanaşmanı təmin etmək üçün dövlət qurumları və gənclər təşkilatları ilə sıx əməkdaşlıq edərək tərəfdaşlıq, ünsiyyət və icra üçün mərkəzi hab rolunu oynamalıdır. Aydın bir mərkəzə malik olmaqla, koordinasiyanı artırmaq, təşəbbüsləri sadələşdirmək və gənclərin sülh quruculuğu və təhlükəsizlik səylərində gücləndirilməsi üçün lazımi dəstək və resursları təmin etmək mümkün olar. Davamlı İnkişaf Məqsədlərinin (DİM) uğurlu təşviqi kimi ölkədə aydınlığın, görünənliyin və mərkəz nöqtələrinin təşviq edilməsi də vacibdir.

- sülhü, sosial ədaləti və münaqişənin transformasiyasını təşviq edən təhsil proqramlarına sərmayə qoyulması, sülh təhsilinin daha çox gənclər üçün əlçatan edilməsi, o cümlədən münaqişə araşdırmaları, dialoq və transformasiya üzrə təlim sessiyalarının keçirilməsi. Bundan əlavə, Azərbaycanda gənclər üçün potensialın gücləndirilməsi üzrə fəaliyyətlərin layihələndirilməsi və həyata keçirilməsi üçün resursların və təcrübənin təmin edilməsi faydalı ola bilər, həmçinin təhlükəsizlik sektorunda islahatlar, münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq sistemləri kimi sahələrdə texniki təcrübənin inkişafına dəstək ola bilər.

- sülh və münaqişə nəzəriyyələri üzrə təlim materiallarının yerli dillərdə hazırlanmasına və tərcüməsinə sərmayə qoyulması, mövcud materialları uyğunlaşdırılması və ya Azərbaycanın spesifik kontekstinə uyğun gələn yenilərini yaratmaq üçün yerli ekspertlər, akademiklər və praktiklərlə işləməklə əlçatanlığın və mədəni aktuallığın təmin edilməsi.

- Azərbaycan dilində sülh və münaqişəşünaslıq üzrə kitablar, məqalələr, tədqiqat işləri və multimedia resursları da daxil olmaqla hərtərəfli material kolleksiyasını özündə cəmləşdirən xüsusi resurs mərkəzinin yaradılması. Bu materiallara əlavə

olaraq, gənclərin yerli dildə sülh və münaqişə nəzəriyyələri ilə bağlı geniş çeşidli açıq materialları əldə edə biləcəyi onlayn platformalar və ya arxivlər vacib ola bilər. Hər iki halda bu resursları toplamaq və paylaşmaq üçün yerli universitetlər, tədqiqat institutları və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək vacibdir.

- gənclərin sülh quruculuğu səylərində iştirakını asanlaşdırmaq üçün xüsusilə Azərbaycanın regionlarında təlim və təşəbbüslər üçün mərkəzlərin əlçatanlığının artırılması. Bu mərkəzlər gənclərin rəhbərlik etdiyi təşəbbüsləri dəstəkləmək və gənclər arasında əməkdaşlığı inkişaf etdirmək üçün iclas otaqları, təlim materialları və texnoloji avadanlıq kimi resursları təmin edə bilər. Eyni zamanda, regionlarda gənclərin təlimi və təşəbbüsləri üçün məkan kimi istifadə oluna bilən mövcud icma mərkəzləri, mədəniyyət obyektləri və təhsil müəssisələrinin xüsusi ehtiyaclarını ödəmək üçün bu obyektlərin təkmilləşdirilməsi və təchiz edilməsi üçün maliyyə və resurslar təqdim etməklə gənclərin sülh quruculuğu fəaliyyətlərindəki xüsusi ehtiyaclarının dəstəklənməsi vacibdir.

- digər kontekstlərdə olan mövcud çərçivələri tətbiq etmədən yerli xüsusiyyətləri nəzərə alan proqramların hazırlanması. Yerli kontekstin unikal mədəni, sosial və siyasi dinamikasının tanınması və dərk edilməsi bu proqramların aktuallığını və effektivliyini təmin etmək üçün çox vacibdir. Bu, gənclər, yerli vətəndaş cəmiyyəti təşkilatları və hökumət orqanları ilə fəal şəkildə məşğul olmaq yolu ilə edilə bilər. Bu, ölkədə gənclərin üzləşdiyi xüsusi problemləri həll edən müdaxilələrin inkişafına kömək edəcək.

### Vətəndaş cəmiyyəti təşkilatlarına:

- gənclərin sülh quruculuğunda və münaqişələrin qarşısının alınmasında daha çox iştirakını təmin etmək üçün hökumət və beynəlxalq təşkilatlarla əməkdaşlıq. Gənclərin cəlb edilməsinin vacibliyi haqqında məlumatlılığı artırın və gənclərin cəlb edilməsinə üstünlük verən siyasət və mexanizmlərin həyata keçirilməsinə təkan verin. Bu, aşağı səviyyədə sülh təhsili təşəbbüslərinin təşkili və dəstəklənməsi vasitəsilə həyata keçirilə bilər.

- gənclərin rəhbərlik etdiyi sülh təşəbbüsləri, o cümlədən seminarlar və dialoq sessiyaları vasitəsilə gənclərin cəlb edilməsi, gənclərin liderlik bacarıqlarını inkişaf etdirilməsi və sülh quruculuğu səylərinə töhfə verə biləcəkləri sülh klublarında və ya təşkilatlarda iştirak etməyə həvəsləndirilməsi. Vətəndaş cəmiyyəti gəncləri fəal şəkildə cəlb etməklə gələcək nəslin dinc yanaşı yaşama və ictimai harmoniyaya sadiq olmasını təmin edə bilər və keçmiş səhvlər və illüziyalar yükü olmadan daha realist və balanslaşdırılmış mövqeyə fokuslanan yeni sülh quruculari nəsli yetişdirə bilər.

- gənclərin müxtəlifliyini qəbul edən və onlara homogen bir qrup kimi yanaşmaqdan çəkinən tərifinin formalaşdırılması. Etnik mənsubiyyət, gender, sosial-iqtisadi status, əlillik və coğrafi yer kimi amillər də daxil olmaqla, gənclərin sülh quruculuğu təşəbbüslərinə gətirdikləri müxtəlif kimlikləri, mənşəyi və təcrübələri qəbul etmək çox vacibdir. Gəncləri sülh quruculuğuna cəlb etməyə yönəlmiş proqramlar və fəaliyyətlər hazırlayarkən, hədəflənən demoqrafik qrupu dəqiqləşdirmək, təşəbbüslərin inklüziv, həssas olmasını və xüsusi ehtiyaclara, perspektivlərə və istəklərə cavab verməsini təmin etmək vacibdir.

- həm bürokratiya daxilində, həm də geniş əhali arasında sülh fəallarına qarşı mövcud olan müəyyən qərəzlərin nəzərə alınması. Məhz buna görə də bütün sülhməramlı təşəbbüslər müharibə ilə bağlı mövcud travmaların dərinliyini nəzərə almalı, məqsəd və dilini diqqətlə seçməlidir. Həmçinin, bu layihələri şişirdilmiş pasifist mövqeləri və yerli konteksti nəzərə almaq istəməmələri onları yad görünməyə vadar edən və nəinki onların cəmiyyətlə əlaqəsini azaltmaqla yanaşı, həm də onların təşəbbüslərinə qarşı düşmənçilik yaradan bəzi insanlara həvalə edilməməsi tövsiyə olunur.

- sülh dəyərlərini təbliğ etmək və müsbət mesajlar yaymaq üçün media və kommunikasiyanın gücündən istifadə olunması, barışıq, dialoq və sülh şəraitində birgə yaşayış hekayələrini işıqlandırmaq üçün jurnalistlər, bloggerlər və influenserlərlə əməkdaşlıq edilməsi, sosial media platformalarından, onlayn

kampaniyalardan və ənənəvi media orqanlarından istifadə etməklə məlumatlılığın artırılması, stereotiplərin sındırılması və sülh narrativlərinin təbliği.

- onların effektivliyini qiymətləndirmək və lazımi düzəlişlər etmək üçün təşəbbüslərin təsirinin qiymətləndirilməsi və monitorinqi, iştirakçılardan rəylərin toplanması, sorğuların keçirilməsi, münasibət və davranış dəyişikliyi göstəricilərinin ölçülməsi. Bu məlumatlar gələcək proqramlaşdırmanı məlumatla təmin edə və daha böyük təsir üçün strategiyaları yaratmağa kömək edə bilər.

## SPESİFİK TÖVSİYƏLƏR

### Formal sülh təhsili üzrə tövsiyə

#### Təhsil və Elm Nazirliyinə:

- sülh təhsilinin institutsionallaşdırılması və Azərbaycanın təhsil sisteminə inteqrasiyası. Təhsil və Elm Nazirliyi sülh və münaqişələrin həllinə yönəlmiş təhsil modelini məktəb kurikulumlarına daxil edə bilər. Bu model, Bosniya və Herseqovinadan" Sülh üçün Təhsil" modeli kimi beynəlxalq sülh təhsili təcrübəsinə əsaslana bilər. Dəqiq desək, sülh təhsili proqramı sülhün qurulmasının təkcə münaqişənin birbaşa əlamətlərini deyil, həm də münaqişənin zorakılığı davam etdirən əsas səbəblərini və strukturlarını aradan qaldırmağı nəzərdə tutduğunu qəbul edərək, sülhün müxtəlif ölçülərini, o cümlədən şəxsi, sosial və struktur aspektlərini əhatə edən vahid yanaşma tətbiq etməlidir. Başlanğıc olaraq, təklif olunan dəyişikliklərin effektivliyini qiymətləndirmək üçün seçilmiş bir sıra qurumlarda pilot layihəyə start verilə bilər. Uğurlu nəticələr əldə olunarsa, təşəbbüs ölkə üzrə bütün təhsil müəssisələrinə yayıla bilər. Proqramın özü münaqişələrin həlli, tolerantlıq, insan hüquqları, müxtəliflik və mədəniyyətlərarası anlaşmaya yönəlmiş xüsusi dərslər və fəaliyyətləri əhatə etməli və stereotiplərə meydan oxumaq, empatiyanı təşviq etmək və tələbələr arasında tənqidi düşüncəni təşviq etmək məqsədi daşımalıdır. Buraya storytellinq, rol oyunu,

simulyasiyalar və kooperativ oyunlar kimi təcrübi öyrənmə üsulları daxil ola bilər ki, bu da empatiya qazanmağa, perspektiv əldə etməyə və müxtəlif nöqteyi-nəzərləri dərk etməyə kömək edəcək. Bundan əlavə, proqrama mədəniyyətlərarası mübadilələr, tələbələrin rəhbərlik etdiyi təşəbbüslər, sülhməramlı layihələr və ictimai xidmət proqramları daxil ola bilər. Bu kurrikulumun tətbiqi zamanı müəllimləri sülh təhsilini səmərəli şəkildə çatdırmaq üçün lazım olan bilik, bacarıq və pedaqoji yanaşmalarla təchiz etmək üçün onlara xüsusi təlimlərin keçirilməsinə ehtiyac var. Müəllimlər münaqişələrin təhlili, dialoqun asanlaşdırılması, qeyri-zorakı ünsiyyət və transformativ pedaqogika haqqında öyrənməlidirlər. Müharibədən sonrakı konteksti nəzərə alaraq, model həm də münaqişənin təsirini yaşamış tələbələr və müəllimlər üçün dəstək mexanizmləri təmin etməklə, bağışlanma və kollektiv şəfa üçün məkanlar yaratmağa yönəlmiş travmanın sağalmasına da toxunmalıdır. Nəhayət, modelin effektivliyi və təsiri sülh təhsilinin tətbiqinin nəticələrini və faydalarını öyrənməklə, gələcək təkmilləşdirmələr və düzəlişlər üçün məlumat verərək davamlı olaraq qiymətləndirilməli və monitorinq edilməlidir.

- sülh narrativlərinin yerli kurrikuluma inteqrasiyası. Sistemli sülh təhsilinin həyata keçirilə bilib bilinməyəcəyindən asılı olmayaraq, məktəblər və kolleclər üçün əsasən sosial elmlər (məsələn, tarix) üzrə dərsliklər ümumilikdə vətənpərvərlik çərçivəsini qorumaqla daha dinc hekayələrdən istifadə edə bilər.

- münaqişələrin həlli və sülh quruculuğu baxımından mürəkkəb problemlərin həlli üçün lazımi bilik, bacarıq və perspektivlərlə təchiz edilmiş ekspertlərin inkişafını təşviq etməklə, Təhsil və Elm Nazirliyi bir və ya bir neçə yerli universitetlərdə Sülh Araşdırmaları üzrə Magistratura proqramı (MA) həyata keçirə bilər. Magistratura proqramı tələbələri real dünya münaqişələrini həll etmək üçün lazımi alətlərlə təchiz etmək üçün praktik bacarıqların inkişafını vurğulamalıdır. Danışıqlar, vasitəçilik, dialoqun asanlaşdırılması və sülh quruculuğu strategiyaları üzrə təlim məzunlara müxtəlif sektorlarda, o cümlədən hökumət, beynəlxalq təşkilatlar, QHT-lərdə və akademik mühitdə mənalı töhfələr verməyə imkan verəcək. Belə bir proqramın dizaynı və praktiki həyata keçirilməsinə oxşar proqramlara malik

olan təhsil müəssisələri və/ yaxud bu məsələdə ixtisaslaşmış akademiklərlə beynəlxalq əməkdaşlıq töhfə verə bilər.

## Qeyri-formal sülh təhsili üzrə tövsiyə

### Təhsil və Elm Nazirliyinə:

- məktəblərdə və universitetlərdə gənclər arasında dialoqun, anlaşmanın və münaqişələrin sülh yolu ilə həllinin təşviqi üçün platforma rolunu oynaya biləcək sülh klublarının və məktəbdənkənar fəaliyyətlərin yaradılmasını təşviq etmək. Bu klublar sülhməramlı fəal iştirakı və sülh quruculuğu konsepsiyalarının praktiki tətbiqini təşviq etmək üçün workshoplar, simulyasiyalar və interaktiv sessiyalar təşkil edə bilər.

- yerli ekspertlər, akademiklər və praktiklərlə işləməklə mövcud sülh və münaqişə tədqiqatları materiallarının Azərbaycan dilinə hazırlanmasına və tərcüməsinə sərmayə qoymaq, əlçatanlığı və mədəni aktuallığı təmin etmək.

- Azərbaycan dilində sülh və münaqişə araşdırmalarına dair kitablar, məqalələr, tədqiqat işləri və multimedia resursları da daxil olmaqla, açıq çıxışlı materialların hərtərəfli kolleksiyasını özündə cəmləşdirən xüsusi resurs mərkəzinin (oflayn və onlayn) yaradılması. Bu resursları toplamaq və paylaşmaq üçün yerli universitetlər, tədqiqat institutları və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

### Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı ofisinə:

- sülhü, sosial ədaləti və münaqişənin transformasiyasını təşviq edən təhsil proqramlarına sərmayə qoymaq, sülh təhsilini daha çox gənc (xüsusilə də münaqişədən təsirlənmiş regionlardan olanlar) üçün əlçatan etmək, o cümlədən münaqişə araşdırmaları, dialoq və transformasiya üzrə təlim sessiyaları. Bu təhsil proqramlarından bəziləri tənqidi düşünmə təlimini, münaqişənin transformasiyasının hərtərəfli ölçülərini və kəsişmə yanaşmasını vurğulayan

"Münaqişə məktəbi" metodologiyasına uyğunlaşdırıla bilər. Bu, məcburi köçkünlər, qaçqınlar və veteran ailələri kimi təcrid olunmuş qrupların təmsil olunmasını təmin etməklə, bütün münaqişələrin həlli təşəbbüslərində münaqişədən təsirlənmiş əhali üçün 30% kvotaya malikdir.

- gənclər üçün potensiallarının gücləndirilməsi üzrə fəaliyyətlərin layihələşdirilməsi və həyata keçirilməsi üçün resursların və təcrübənin təmin edilməsi, həmçinin perspektivli gənclər arasında təhlükəsizlik sektorunda islahatlar, münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq sistemləri kimi sahələrdə texniki təcrübənin inkişafına dəstək verilə bilər.

- Azərbaycanda keçirilən münaqişələrin həlli üzrə təlimlərin gənc fərdlərə təsirini hərtərəfli qiymətləndirmək üçün beynəlxalq qiymətləndirmə mütəxəssisləri ilə əməkdaşlıq etmək. Bu, münaqişələrin həlli təşəbbüsləri çərçivəsində transformativ nəticələrin ölçülməsində təcrübəsi olan təcrübəli xarici mütəxəssisləri dəvət etməklə həyata keçirilə bilər. Bu proses həmçinin yerli ekspertlərin bacarıqlarının artırılması, transformativ dəyişikliklərin effektiv ölçülməsi və kəmiyyətinin müəyyən edilməsi üçün onlara səlahiyyət verilməsi və əsas irəliləyiş göstəriciləri, davamlı, uzunmüddətli təsirlər ətrafında mərkəzləşdirilmiş sağlam qiymətləndirmə çərçivəsinin yaradılması üçün resursların ivestisiyasını da əhatə edə bilər.

- Barışıq, dialoq və dinc yanaşı yaşama narrativlərini təşviq etmək üçün ictimaiyyətlə əlaqələr təşəbbüslərinə sərmayə qoymaq sülh dəyərlərini inkişaf etdirmək və müsbət mesajları yaymaq üçün strateji və təsirli bir yoldur. Jurnalistlər, bloqçular və influenserlərlə əməkdaşlıq sosial media, onlayn kampaniyalar və ənənəvi media orqanları da daxil olmaqla müxtəlif platformalarda bu narrativləri genişləndirməyə kömək edə bilər və bununla da sülh və anlama mədəniyyətini inkişaf etdirə bilər.

- Azərbaycanda GST gündəliyini təşviq edəcək tədbirlərin dəstəklənməsi (məsələn, yay məktəbləri). BMT bu cür tədbirləri təşkil etməklə digər qonşu ölkələrdən də iştirakçılar dəvət etməklə çoxmillətli tərkibə xüsusi önəm verə bilər.

## Gender bərabərliyi üzrə tövsiyə

### Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə:

- Məqsədləri, öhdəlikləri və əməkdaşlıq sahələrini müəyyən etmək üçün çərçivə sənədi (məsələn, Anlaşma Memorandumu) vasitəsilə xüsusi təşkilatlarla (məsələn, qadınlar, sülh və təhlükəsizlik Məsləhət Şurası, Gender Mərkəzi) əməkdaşlıq etmək, qadın hüquqları, gender əsaslı zorakılıq barəsində ictimaiyyəti maarifləndirmək üçün birgə məlumatlandırma və təbliğat kampaniyalarını inkişaf etdirmək və dinc və inklüziv cəmiyyətin təşviq edilməsinin vacibliyi haqqında məlumatlılığın artırılması. Bu kampaniyalar müxtəlif təhsil və icma təşkilatlarını cəlb edə bilər və gənclərin şəxsiyyətlərinin kəsişməsini tanımalı və əlilliyi olan, azlıq qruplarından olan və müxtəlif mədəni keçmişə malik gənc qadınların unikal təcrübələrinə əsaslanmalıdır.

- Azərbaycanda gənc qadınların GST dəyərlərinə münasibətdə qarşılaşdıqları unikal çətinlikləri və maneələri daha yaxşı başa düşmək üçün gender baxımından ayrı-ayrı məlumatların toplanmasına və tədqiqatına investisiya qoymaq. Bu datalar fakta əsaslanan siyasətin yaradılması və təhlükəsizlik sahəsində gender bərabərsizliyini aradan qaldırmaq üçüm məqsədyönlü müdaxilələrin hazırlanması üçün məlumat verməlidir. Bundan əlavə, strategiyaların effektiv və fakta əsaslanmasını təmin etmək üçün genderə həssas gənclər proqramlarının sülh və təhlükəsizlik nəticələrinə təsirini qiymətləndirmək üçün tədqiqatları maliyyələşdirilməsi vacibdir.

**Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı ofisinə:**

– qadınları sülh quruculuğu üçün lazımi bilik və bacarıqlarla təchiz edəcək təhsil və təlim proqramlarına sərmayə qoymaq. Bu proqramlar qadınların liderlik, danışıqlar, münaqişələrin həlli və vasitəçilik bacarıqlarının artırılmasına diqqət yetirməlidir. Bu sahədə müxtəlif proqramlar həyata keçirən təhsil müəssisələri və bu sahədə ekspertlər, eləcə də beynəlxalq maraqlı tərəflərlə (məsələn, ATƏT) əməkdaşlıq hərtərəfli təlimin təmin edilməsinə kömək edə bilər.

- gender xüsuslarını hökumət və təhlükəsizlik sektoru siyasətlərinə sistemli inteqrasiyası üçün aydın, hərtərəfli təlimat və mexanizmlərin işlənib hazırlanması və həyata keçirilməsi. Bu təlimatlar və mexanizmlər təkcə milli səviyyədə tətbiq edilməməli, həm də yayılmalı və yerli təşkilat və qurumların təcrübələrinə daxil edilməlidir, bununla da gender meynstriminə ardıcıl və inklüziv yanaşma təmin edilməlidir. Bu təlimatların və mexanizmlərin icrasının monitorinqi də eyni dərəcədə əhəmiyyətlidir.

- qadın sülh qurucularını müvafiq maraqlı tərəflərlə, o cümlədən donorlar və beynəlxalq təşkilatlarla birləşdirəcək şəbəkə tədbirlərinin və platformalarının təşkili. Bundan əlavə, təcrübəli qadın sülh qurucularını yeni başlayanlarla birləşdirən mentorluq proqramlarının yaradılması əhəmiyyətlidir.

- qadınların rəhbərlik etdiyi sülh quruculuğu təşəbbüslərini dəstəkləmək üçün xüsusi vəsait və resursların ayrılması. Buraya qrantlar, təqaüdlər və qadınlar və qadın təşkilatları tərəfindən həyata keçirilən layihələr üçün əsas maliyyə vəsaitləri daxil ola bilər. Qadınların sülh quruculuğu fəaliyyətlərində səmərəli iştirak etmələri üçün maliyyə resurslarına çıxış çox vacibdir.

– xüsusilə münaqişə və ya zorakılıqdan təsirlənən gənc qadınlar üçün təhlükəsiz yerlərin yaradılması və dəstək xidmətləri. Bu məkanlar məsləhət, hüquqi yardım, peşə təhsili və dolanışıq dəstəyi göstərməli, gənc qadınların üzləşdiyi xüsusi maneələri aradan qaldırmalı və onları sülh quruculuğunda fəal iştirak etmək üçün gücləndirməlidir.

- maliyyə dəstəyi, təlim və bazarlara çıxış yolu ilə münaqişədən zərər çəkmiş qadınlar arasında sahibkarlığın təşviqi. Qadınların rəhbərlik etdiyi biznes və kooperativlərin yaradılmasını təşviq edin, çünki iqtisadi səlahiyyətləndirmə gender bərabərliyi və sülh quruculuğunun mühüm tərkib hissəsidir. BMT-nin qadın resurs mərkəzlərinin təcrübələrindən və uğurlu modellərindən istifadə etməyi nəzərdən keçirin, bu resursların münaqişədən təsirlənmiş qadınların unikal ehtiyaclarına uyğunlaşdırılmasına xüsusi diqqət yetirilməsi önəmlidir.

## Korporativ sosial məsuliyyətə dair tövsiyə

### Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və özəl sektora:

- güclü qlobal sosial məsuliyyət ekosistemi yaratmaqla özəl sektor təşkilatlarını bu proseslərə cəlb etmək. Korporativ Sosial Məsuliyyətin (KSM) hərtərəfli ekosisteminin yaradılmasına yönəlmiş layihələri həyata keçirməklə gənclərin özəl sektorda daha çox iştirakını təşviq etmək mümkün olacaq. Bu, özəl şirkətləri sülh quruculuğu və münaqişələrin həllinə yönəlmiş KSM təşəbbüslərini inkişaf etdirməyə stimullaşdırmaq, bu sahələrdə çalışan gənclərin rəhbərlik etdiyi təşkilatları dəstəkləmək və gənc sülh qurucuları üçün mentorluq və təcrübə imkanlarını təmin etməklə əldə edilə bilər. Biznes, təhsil və sosial müdafiə institutları arasında daha möhkəm əlaqələr qurulmalıdır ki, böyük şirkətlər gənclərə, xüsusən də sosial-iqtisadi cəhətdən əlverişsiz şəraitdə olan gənclərə daha fokuslanmış təlimlər verə bilsin, onların ixtisaslı işçi qüvvəsinə çevrilməsinə və cəmiyyətə düzgün inteqrasiyasına şərait yaratsın. İnkişaf etməkdə olan ölkələr (məsələn, Nigeriya ) üzrə GST-nin bir sıra hesabatlarında vurğulanır ki, gənclərin işsizliyi və marginallaşması ilə mübarizə gənclərin ekstremizmə və zorakılığa sürüklənməsinin qarşısını almağın ən təsirli yollarından biridir.

### Yaşat Fondu və DOST Agentliyinə:

- hazırda mövcud korporativ tədbirlər əsasən passiv yardım göstərir (məsələn, müharibə veteranları üçün Azercell-in güzəştli tarifi). Bundan əlavə, hazırda müharibə veteranlarını işə götürməyə yönəlmiş mövcud proqramlar olsa da, onların xüsusi problemlərini həll etmək üçün daha çox səy göstərilə bilər, çünki posttravmatik stress pozuntusu (PSP) və digər psixoloji problemləri olan veteranlar korporativ mühitə uyğunlaşmaqda çətinlik çəkə bilərlər və buna görə də işəgötürənlər çox vaxt onları işə götürmək və ya saxlamaq istəmirlər, bu da onları iqtisadi cəhətdən daha həssas hala gətirərək üzləşdikləri problemləri daha da artırır. Buna görə də müharibə veteranlarına psixoloji dəstək xidməti onların iş yerinə uyğunlaşmasını da əhatə etməli və onlarla şirkətlər arasında anlaşmanı asanlaşdırmalıdır.

### İqtisadiyyat Nazirliyinə:

- özəl sektoru stimullaşdırmaq üçün gənclərə yönəlmiş təşəbbüslərə başlamaq, dövlət maliyyə dəstəyi və ekspert yardım göstərməyə hazır olmalıdır. Məsələn, veteran gənclərin təlimi və işlə təmin olunması üçün proqramlar həyata keçirən, əlverişsiz şəraitdə olan şirkətlər proqramın benefisiarlarını uğurla işə götürdükləri təqdirdə subsidiyalar və digər mükafatlar almalıdırlar. Gənclərin təliminə və/və ya GST dəyərlərinin müəyyən dərəcədə təbliğinə yönəlmiş biznes fəaliyyətləri də vergilərdən azad edilə və/yaxud güzəştlər ala bilər.

## Rəsmi sülh prosesində gənclərin iştirakçılığı ilə bağlı tövsiyə

### Gənclər və İdman Nazirliyinə:

- dövlət rəsmiləri və müvafiq maraqlı tərəflər üçün təlim proqramlarının təşkili, siyasətin formalaşması prosesində gənclərin inklüziv iştirakının səmərəliliyini və faydalarını vurğulamaq. Onları sülhlə bağlı təşəbbüslərdə gənc fərdlərlə səmərəli

şəkildə məşğul olmaq və gəmclərin potensialından istifadə etmək üçün lazım olan bilik və alətlərlə təchiz edin.

- hökumət rəsmilərinin gənc nümayəndələrlə bilavasitə qarşılıqlı əlaqədə ola biləcəyi müntəzəm gənclərlə məsləhətləşmə panellərinin yaradılması. Bu panellər qərar qəbuletmə prosesinin bir hissəsi olmalı və gənclərin sülh və siyasətin qurulması ilə bağlı fikirlərini, ideyalarını və narahatlıqlarını ifadə etmələri üçün platforma təmin etməlidir. Bundan əlavə, sülh, təhlükəsizlik və münaqişələrin həlli ilə bağlı mövzularda gəncləri xüsusi olaraq dəvət edən ictimai dinləmələr və forumlar təşkil edin. Bu, gənclərə öz perspektivlərini və təcrübələrini qanunvericilik prosesinə birbaşa bölüşməyinə imkan verir.

- gənclərin iştirakına mane olan amillərin və onların iştirakına dair mövcud tendensiyaların, o cümlədən daxili və xarici mühitlərdə gənclərin təmsilçiliyinin təsirinin başa düşülməsini vurğulayan tədqiqat təşəbbüslərinin dəstəklənməsi.

- hökumət rəsmilərini və maraqlı tərəfləri gəncləri sülh təşəbbüslərinə fəal cəlb etməyə həvəsləndirmək üçün həvəsləndirmə və tanınma sistemlərinin tətbiqi. Gənclər iştirakçılarını dəstəkləyən və onlara mentorluq edənlərin tanınması və mükafatlandırılması daha çox iştiraka kömək edə bilər.

- gənc diplomatlar üçün ixtisaslaşdırılmış təlim proqramlarının hazırlanması, onlara öz ölkələrini beynəlxalq forumlarda səmərəli şəkildə təmsil etmək üçün lazım olan bilik və bacarıqların verilməsi.

**Milli Məclisə:**

- Gənclər və İdman Komitəsi kimi parlamentin müvafiq komitələrinə gənc nümayəndələrin inteqrasiyası. Bu gənc nümayəndələrin komitə qərarlarında, xüsusən də sülh və təhlükəsizliklə bağlı qərarlarda fikirlərini bildirmə və səs hüququna malik olmasını təmin edin. Bundan əlavə, sülh quruculuğu prosesinin və daha geniş ictimai qərarların qəbul edilməsinin bütün mərhələlərində gənclərin inklüziv təmsilçiliyini təşviq edən və səlahiyyətləndirən aydın qanunvericilik

çərçivələri yaradın. Bu çərçivələrə hesabat və hesabatlılıq mexanizmlərinin daxil olmasını təmin edin.

- sülh quruculuğu prosesinin və ictimai qərarların qəbulunun bütün mərhələlərində gənclərin inklüziv təmsilçiliyini təşviq etmək üçün qanunvericiliyə yeni mexanizmlərin və çərçivələrin tətbiqi. Bununla əlaqədar olaraq, gənclərin təklif olunan qanunvericiliyə dair qatqıları və rəylərini öyrənməklə qanun layihələrinin və düzəlişlərin hazırlanmasında iştirakını təşviq edin və dəstəkləyin. Gənclərin siyasət tövsiyələrini təqdim etmələri və qərarların qəbulu prosesində onların fikirlərini fəal şəkildə nəzərə alınması üçün platformalar yaradın.

## Gənclərlə bağlı məlumat bazası üzrə tövsiyə

### Dövlət Statistika Komitəsinə və digər aidiyyəti dövlət qurumlarına:

- Azərbaycanda gənclərin cəmiyyətdə iştirakı, məşğulluq və sahibkarlıq, təhsil və gənclərin təlimi, habelə sosial iştirak kimi kontekstual göstəricilərdən ibarət etibarlı məlumat bazasının yaradılması. Münaqişə və münaqişədən sonrakı vəziyyətdə olan gənclərin dəyişən ehtiyac və şəraitlərinə uyğun və aktual qalmasını təmin etmək üçün məlumat bazasını mütəmadi olaraq yeniləyin.

- gənclərlə bağlı məlumatların effektiv şəkildə toplanması, saxlanılması və təhlili üçün texnologiya və məlumat bazaları daxil olmaqla, zəruri infrastruktura sərmayə qoymaq üçün resursların ayrılması. Bu, məlumatların toplanması və idarə olunması proseslərini təkmilləşdirəcək və aktual məlumatların mövcudluğunu təmin edəcək.

- gənclərin demoqrafik, sosial-iqtisadi göstəricilərinin və onların sülh quruculuğu ilə bağlı səylərə cəlb edilməsinin müxtəlif aspektlərini hərtərəfli toplanılması üçün kəsişən məlumatların toplanması üsullarının tətbiqi. Gender, əlillik, etnik mənsubiyyət, din, təhsil səviyyəsi və sosial status kimi meyarları daxil edin ki,

münaqişə və münaqişədən sonrakı ssenarilərdə gənclərin ehtiyaclarını ətraflı şəkildə başa düşün.

- məlumatların toplanması üsullarını beynəlxalq standartlara uyğunlaşdırmaq, məlumatların müqayisəliliyini təşviq etmək və gənclərlə bağlı məsələlərə qlobal yanaşmalara imkan vermək üçün beynəlxalq təşkilatlar və ekspertlərlə əməkdaşlıq etmək. Bu, həmçinin gənclərin səlahiyyətlərinin artırılması və sülhün qurulmasına yönəlmiş siyasətin müəyyən edilməsi və proqramların hazırlanması üçün dəyərli fikirləri təmin edərək toplanmış məlumatları effektiv qiymətləndirmək və şərh etmək üçün analitik alətlər və modellərin hazırlanmasına kömək edə bilər. Bu baxımdan, yaradılmış beynəlxalq təşkilatlarla (məsələn Qafqaz Tədqiqat Resurs Mərkəzləri - QTRM) əməkdaşlıq etmək. Beynəlxalq təşkilatlarla əlaqə yaratmaqla, Azərbaycan məlumatların toplanması proseslərini gücləndirə və daha geniş və bir-biri ilə əlaqəli perspektivə çıxış əldə edə bilər, nəticədə gənclərin unikal ehtiyaclarına cavab verən faktlara əsaslanan siyasət və təşəbbüslərin inkişafına təkan verə bilər.

- məlumatlı qərar qəbul etməyi təşviq etmək və hesabatlılıq mədəniyyətini inkişaf etdirmək üçün toplanmış məlumatların ictimaiyyət, siyasətçilər və tədqiqatçılar üçün əlçatan olmasını təmin etmək. Bununla belə, bunu edərkən, həssas məlumatları qorumaq üçün sərt məlumat məxfiliyini və təhlükəsizlik tədbirlərini qorumaq da eyni dərəcədə vacibdir. Məlumatların paylaşılması və istifadəsində şəffaflığın təşviqi toplanmış məlumatların etibarlılığını daha da gücləndirir və prosesə ictimai inamı gücləndirir. Məlumata əlçatanlıq və təhlükəsizlik arasında tarazlıq yaratmaqla, məlumatlara əsaslanan qərarların qəbulu və gənclərlə bağlı effektiv müdaxilələr üçün daha güclü zəmin yaradıla bilər.

- Səmərəli məlumatların toplanmasına mane olan formal və qeyri-formal maneələrin müəyyən edilməsi və aradan qaldırılması. Bu baxımdan, sənədləşmə işini optimallaşdırmaq və mərkəzi, regional dövlət qurumları arasında koordinasiyanı gücləndirməklə, bürokratik prosedurların sadələşdirilməsi və məlumatların toplanmasına maneələrin, xüsusən də regionlarda azaldılması.

### Gənclər və İdman Nazirliyinə:

- gənc işçilərin zorakılığın qarşısının alınması tədbirlərini həyata keçirməsi üçün adekvat dəstəyi təmini etmək məqsədilə sülh quruculuğu fəaliyyətləri ilə bağlı gənclərin rəhbərlik etdiyi təşəbbüslərin və gənclərə yönəlmiş fəaliyyətlərin xəritələşdirilməsi. Münaqişənin transformasiyası ilə bağlı qanunvericilik təlimatları hazırlamaq məqsədilə maraqlı tərəflərin xəritələşdirilməsi də zərərlidir.

- kəmiyyət və keyfiyyət tədqiqatlarını həyata keçirmək üçün lazımi qaydada hazırlanmış və təhsil almış gənc tədqiqatçılar hovuzunun yaradılması. Gənclərin məlumatların toplanmasında iştirakı nəzərəçarpacaq nəticələrə nail olmaq üçün vacibdir, ona görə də bu fəaliyyət məlumatların qiymətləndirilməsi prosesini gücləndirəcək və zəruri hallarda gənclərin ehtiyaclarını qiymətləndirmək üçün müasir və qanuni məlumatların mövcudluğu üçün əsas verəcək. Ciddi tədqiqat metodologiyalarını və bilik mübadiləsini təşviq etmək üçün bu tədqiqatçılar və qurulmuş akademik institutlar arasında əməkdaşlığın asanlaşdırılması.

## Nəsillərarası dialoq üzrə tövsiyə

### Dövlət qurumlarına:

- yaş ayrılığının qarşısını almaq üçün gənc və yaşlı nəsilləri yaxınlaşdıran davamlı nəsillərarası dialoqun qurulması. Bu dialoqa hər iki tərəfə bir-birinin perspektivlərini və narahatlıqlarını başa düşməyə imkan verən dialoqu və dürüst, məhsuldar fikir mübadiləsini təşviq etmək üçün müntəzəm nəsillərarası forumlar və tədbirlər yaratmaqla nail olmaq olar. Azərbaycan cəmiyyətində yaşlı nəslin ənənəvi üstünlük təşkil etdiyini nəzərə alaraq, onların gənclərin həqiqi qayğılarını eşitmələrini təmin etmək vacibdir.

- bütün yaş kateqoriyalarının vətəndaş həyatının müxtəlif aspektləri üzrə nəsillərarası əməkdaşlığa öz yanaşmalarını, o cümlədən Ermənistanla sülhsevər qonşu ölkə kimi gələcək birgə yaşayışı müzakirə etmək üçün həvəsli hiss etdikləri

məkanın təmin edilməsi. Bu, həmçinin gənc sülh qurucularının təcrübəsinin tanınmasını və onların sülh quruculuğu prosesinin layihələşdirilməsi və həyata keçirilməsi mərhələlərinə daxil edilməsini tələb edəcək. Gənclərdən sadəcə olaraq digər, əsasən gənclərdən ibarət olmayan maraqlı tərəflərin verdiyi əmrləri məqsədsiz şəkildə yerinə yetirmələri gözlənilməməlidir, əksinə gənclərin öz həll yollarını təklif etməsi üçün dəstək verilməlidir. İnklüzivlik ideyası təkcə bu insanların gənc olmalarına deyil, həm də müvafiq təcrübə və biliklərə malik olmalarına əsaslanmalıdır.

- bərabərhüquqlu və qarşılıqlı faydalı nəsillərarası tərəfdaşlıqların, gənclərin müzakirə olunan məsələnin müəyyən aspektlərinə tənqidi yanaşmasına görə, məsələn gəncləri nankorluqda ittiham etmək kimi mədəniyyətə əsaslanan təcridə qarşı geri çəkilmək üçün bir məkan kimi tanımasını təmin etmək. Bu, maliyyələşdirmə perspektivlərinə təsir edə bildiyinə görə, gənclərin rəhbərlik etdiyi qrupları dialoq prosesindən kənarlaşdıra bilər.

- proqramlaşdırmaya, tədbirlərə və maliyyələşdirməyə kimin daxil edilməli olduğunu müəyyən edərkən nəzərə alınmalı və daxil edilməli olan bir amil də yaşdır. Həmçinin, gənclər təşkilatlarının nəsillərarası dialoqda iştirakının, imtiyazlı insanların dəvət edildiyi, amma hansı ki, kənd yerlərindən olan gənclərin dəvət edilməyərək təcrid edildiyi, qohumbazlıq və elitizmin olduğu tədbirlərdən əziyyət çəkməmələrinin təmin edilməsi.

- Birgə müracitəi təşviq etmək üçün maliyyələşdirməyə müraciət prosesinin inkişaf etdirmək, gənclərin rəhbərlik etdiyi təşkilatlar və ya müxtəlif gənclər kateqoriyalarını təmsil edən təşkilatları rəqabətdə bir-birinə qarşı qoymaq əvəzinə, onlar arasında əməkdaşlığın gücləndirilmək.

### Beynəlxalq təşkilatlara:

- Azərbaycan hökuməti ilə əməkdaşlıq edərək nəsillərarası dialoqa və gənclərin sülh quruculuğu təşəbbüslərinə cəlb olunmasına yönəlmiş konkret planların işlənib hazırlanması və həyata keçirilməsi.

- nəsillərarası dialoqda iştirak edən yerli gənclər təşkilatlarına əlçatan və uzunmüddətli maliyyə dəstəyinin göstərilməsi.

- müxtəlif nəsillərin liderləri arasında münasibətlərin qurulması üzrə fəaliyyətlərin maliyyələşdirilməsinin təmin edilməsi.

**Vətəndaş cəmiyyəti təşkilatlarına:**

- sülh qurucularının müxtəlif nəsilləri arasında mənalı müzakirələr üçün seminarların, forumların və dialoq sessiyalarının təşkili. Yaşlı insanların başa düşdüyü, lakin gənc nəsillərin anlamadığı sosial həyatın müəyyən aspektlərinin mənası və nəticələri haqqında nəsillər arasında müzakirələrin aparılması çox vacibdir.

- nəsillərarası dialoq proqramlarının keçirilmə müddətindən əlavə sülh qurucularının müxtəlif nəsilləri arasında davamlı əlaqəni təmin etmək üçün təşkilati əlaqələrin qurulması.

- sülhməramlı qrupların və dialoqların dəstəklənməsində effektivliyin maksimuma çatdırılması, fəaliyyətin planlaşdırılması zamanı maraqlı tərəflərin hərtərəfli təhlilinə üstünlük verilməsi. Bu yanaşma bütün müvafiq qrupları müəyyən etməyə və yerli güc dinamikasını və təsiredici amilləri anlamağa kömək edəcək.

## Azərbaycanda beynəlxalq təşkilatların təşviqinə dair tövsiyə

**Prezident Administrasiyasına, Xarici İşlər Nazirliyinə:**

- qeyri-hökumət təşkilatları və fondlar kimi bəzi nüfuzlu beynəlxalq strukturları Azərbaycanda öz fiziki varlıqlarını yaratmağa və bərpa etməyə dəvət edilməsi. Ölkə 2020-ci ildən sonrakı dövrdə Qarabağda Böyük Qayıdış (regionun psixoloji və potensialın gücləndirilməsi dəstəyinə ehtiyacı olan keçmiş məcburi köçkünlərin yenidən məskunlaşdırılması), minaların təmizlənməsi, o cümlədən minaya dair məlumatlılıq kimi meqalayihələri ehtiva edən məsələlərlə məşğul olur

ki, ölkə həmin müvafiq mövzular üzrə maliyyə və təcrübə idxalında maraqlı ola bilər. Bu, hökumətə xarici strukturların Azərbaycanla bağlı gündəliyini müzakirə etməyə və onu yerli ehtiyac və gözləntilərə cavab vermək üçün uyğunlaşdırmağa imkan verərdi.

### Ədliyyə Nazirliyinə:

- Azərbaycanda beynəlxalq təşkilatların fəaliyyət şəraitinin yumşaldılması. Nazirlik onlara güzəştli şərtlər təklif etməklə Azərbaycanla bağlı layihələrin maliyyələşdirilməsi və icrası daha şəffaf olmasını təmin edə bilər ki,bu da bəzi hallarda Azərbaycanda qeydiyyatdan yan keçmək üçün bəzi hallarda boşluqlardan və/və ya müxtəlif üsullardan istifadə edənlərin qarşısını ala bilər.

### Beynəlxalq təşkilatlara:

- Birbaşa Azərbaycanda fəaliyyət göstərmək bir çox cəhətdən faydalı olardı. Regional mövcudluğu olan və Azərbaycanı əhatə edən təşkilatlardan bəziləri, adətən, yerli kütlələrlə əlaqəsi olduqca məhdud olan, marginallaşmış ekspertlər və fəallar qrupları ilə işləyir. Bu monopoliyanı qırmaq və yerli ehtiyacları öyrənməklə cəmiyyətə daha böyük təsir göstərmək üçün Cənubi Qafqaz yönümlü təşəbbüslər mərkəzi hakimiyyət orqanları və vətəndaş cəmiyyəti təşkilatları ilə birgə ölkədə işləməkdə maraqlı olmalıdırlar.

**ƏLAVƏ 1:**

**Fərdi müsahibələr:**

- Avrasiya Əməkdaşlıq Fondunun (Eurasia Partnership Foundation) Azərbaycan ofisi
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
- Berqhof Fondunun (Berghof Foundation) Azərbaycan ofisi
- Cənubi Qafqaz Araşdırmaları Mərkəzi
- Keçmiş məcburi köçkünlər
- Müstəqil ekspertlər, tədqiqatçılar və təlimçilər
- Qadınlar, Sülh və Təhlükəsizlik Məsləhət Şurası Azərbaycan
- Sülh quruculuğunda fəal iştirak edənlər
- "Femact" Azərbaycan Qadınlar Fondu
- "IMAGINE" Münaqişələrin Transformasiyası Mərkəzi
- "Sağlam Düşüncə" Gənclər Təşkilatı

**Tələbələr və gənc fəallarla fokus qrupu:**

- Fokus qrupunda iştirak etmiş gənclər müxtəlif yerli və regional sülh quruculuğu təşəbbüslərində fəal iştirak ediblər, bəziləri isə beynəlxalq təşkilatların dəstəyi ilə münaqişələrin transformasiyası sahəsində layihələr həyata keçiriblər.

**Dövlət qurumlarının nümayəndələri ilə dəyirmi masa:**

- Azərbaycan Respublikasının Gənclər Fondu
- Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası (NAYORA)
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
- Azərbaycan Könüllü Təşkilatları İttifaqı
- Azərbaycanlı Tələbələr və Məzunlar Platforması (ASAP)
- "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi
- "İrəli" İctimai Birliyi

BAKI 2023